16 avqust 2024 №59-60 (2125)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## "Gənclər sizin kimi olmaq istəyəcəklər"

### Prezident Olimpiada medalçılarını qəbul edib




Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir.

Prezident İlham Əliyev bu sözləri avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edərkən deyib.

səh. 2

## "Füzulidə yay məktəbi" – dövlət və özəl sektorun əməkdaşlığı

### Layihə çərçivəsində 200-dək şagird üçün maraqlı proqram tərtib edilib

Avqustun 15-də Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq yaradıcılıq mərkəzində "Füzulidə yay məktəbi" layihəsinin açılış mərasimi keçirilib. Layihənin məqsədi yay tətili müddətində doğma yurda qayıtmış Füzuli məktəblilərinin asudə vaxtının maraqlı və əyləncəli təşkilidir.

Avqustun 18-dək davam edəcək layihə Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi, Ağdam, Füzuli və Xocavənd üzrə Prezidentin xüsusi nümayəndəliyinin dəstəyi ilə gerçəkləşir.

Özbəkistan Respublikası Prezidentinin hədiyyəsi olan, 2023-cü ilin avqust ayında istifadəyə verilmiş Füzuli şəhər Uluqbəy adına 1 nömrəli tam orta məktəbinin şagirdləri də layihədə iştirak edir.

Açılış mərasimində əvvəlcə Dövlət Himni səsləndirilib, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mədəniyyət Nazirliyinin əməkdaşı və yay məktəbinin koordinatoru Rəfiqə Baxşiyeva layihənin məqsədi, nəzərdə tutulan fəaliyyətlər barədə söz açıb. O, yay məktəbinin keçirilməsinə dəstək göstərən bütün qurumlara təşəkkürünü bildirib.

davamı səh. 3-də







## Gəncə Dövlət Milli Dram Teatrı Litvada festivala qatılıb

7-15 avqust tarixlərində Litva Respublikasının Druskininskai şəhərində X Beynəlxalq Teatr Festivalı keçirilib.

Festivalda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Gəncə Dövlət Milli Dram Teatrı da iştirak edib.

Yaradıcı kollektiv avqustun 13-də Ejen İoneskonun "Kral ölür" absurd komediyasını göstərib. Tamaşanın rejissoru Tural Mustafayevdir. Rolları Əməkdar artistlər Elxan Abbasov (Kral Beranje), Sevda Orucova (Qulluqçu), Kəmalə Məmmədova (Marqarita), İlham Hüseynov (Həkim), aktyorlar Gültəkin Mehtizadə (Mariya), Ruslan Hüseynov (Keşikçi) canlandırıblar.



Teatrdan verilən məlumata görə, festivalda Azərbaycanla yanaşı, Polşa, Slovakiya, Latviya, Ukrayna kimi ölkələr də təmsil olunub.

Tamaşadan sonra Azərbaycanın Litvadakı səfiri Tamerlan Qarayev və səfirlik nümayəndələri aktyorlarla görüşüb və xatirə şəkli çəkdiriblər. Gəncə Dövlət Milli Dram Teatrının direktoru Aqil Bəhramlı festivalın direktoru Mariya Tananaya ağacda yonulmuş, əl işi olan dahi şair Nizami Gəncəvi məqbərəsinin maketini hədiyyə edib.

Qeyd edək ki, Gəncə Dövlət Milli Dram Teatrı "Kral ölür" tamaşası ilə iyul ayında Portuqaliyanın Braqa şəhərində keçirilən festivalda iştirak edib və mükafata layiq görülüb.

## Mədəniyyət və yaradıcı sənayelər üzrə xaricdə ali təhsil imkanı

### Mədəniyyət Nazirliyinin xüsusi Təqaüd Proqramına sənəd qəbulu başlanıb

Mədəniyyət Nazirliyi Mədəniyyət və yaradıcı sənayelər (MYS) üzrə xüsusi Təqaüd Proqramı çərçivəsində bakalavriat və magistratura səviyyələrində xaricdə təhsilin maliyyələşdirilməsi ilə bağlı sənəd qəbulu elan edir.

Yaşı 15-dən yuxarı olan, yaradıcı potensialını inkişaf etdirmək və MYS və mədəniyyətin müxtəlif sahələri üzrə əmək fəaliyyəti ilə məşğul olmaq istəyən, xarici ali təhsil müəssisələrinə qəbul olmuş və ya öz hesabına təhsil almaqda olan Azərbaycan Respublikası vətəndaşları təhsilin maliyyələşdirilməsi məqsədilə Təqaüd Proqramına müraciət edə bilərlər.

Bakalavriat və magistratura səviyyələri üzrə aşağıdakı ixtisaslaşma istiqamətləri üzrə xaricdə təhsilin maliyyələşdirilməsi həyata keçirilir:

1. Audiovizual (musiqi, kino (o cümlədən animasiya), videoqrafiya və fotoqrafiya); 2. Dəb sənəti; 3. Dizayn; 4. Kuratorluq; 5. Memarlıq; 6. Tədbirlərin təşkili; 7. Mədəni və yaradıcı sahə üzrə menecment; 8. Nəşriyyatlarla işin təşkili; 9. Oyun sənayesi; 10. Teatr, komediya və performans; 11. Yaradıcı texnologiyalar.

Təqaüd Proqramına qəbul prosesi iki mərhələdən ibarətdir: sənədlərin qəbulu və müsahibə mərhələsi.

Sənədlərin qəbulu "edu.creative.az" informasiya resursu üzərindən elektron formada həyata keçirilir.

Müraciət formasının müvafiq bölmələrinə daxil olmaqla Təqaüd Proqramı üzrə üstünlük verilən xaricdə yerləşən ali təhsil müəssisələrinin və həmin müəssisələr üzrə ixtisas və ya proqramların siyahısı ilə tanış ola bilərsiniz.

davamı səh. 2-də

## Ulduzu sönməyən mesenatın yükü



Hələ sağ ikən şəxsiyyəti mifləşəcək dərəcədə məşhurlaşan insanlar olur ki, onların varlığı uca Tanrının lütfüdür. Azərbaycanın tarixindəki belə insanlardan biri Hacı Zeynalabdin Tağıyevdir.

Niyyətimiz əməlləri ilə xalqının sevimlisi olmuş, XIX əsrin sonları, XX əsrin əvvəllərində Millət atası isminə layiq görülmüş Tağıyevin həyatı, fəaliyyəti barədə danışmaq deyil. Görkəmli şəxsiyyətin səhnə və kino obrazlarından söz açmaq istəyirik.

səh. 7

## İstanbuldakı sərginin təəssüratı

İyun ayının son günlərində İstanbulda istedadlı azərbaycanlı rəssam, qələreyaçı Eldəniz Babayevin "Zəfər müjdəsi" adlı sərgisi açıldı.

Müəllif Bakıya qayıtdıqdan sonra təəssüratını bizimlə bölüşdü.



səh. 5

## Monteneqroda "Azərbaycan xalçası: təbiətlə dialoq" sərgisi davam edir

Xəbər verildiyi kimi, avqustun 1-də Monteneqro Milli Muzeyinin Miodrag Dado Djuric incəsənət qalereyasında "Azərbaycan xalçası: təbiətlə dialoq" adlı sərgi açılıb.




Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) həsr olunan sərgidə Azərbaycan Milli Xalça Muzeyinin kolleksiyasından 24 sənət nümunəsi yer alır. Buraya xalçalar, xalça məmulatları və eskizlər aiddir.

Sərgidə nümayiş olunan "Vərni", "Zili" xovsuz xalçaları, "Ağacli", "Şıxlı", "Cəyirli", "Alpan" kimi xovlu xalçalar, həmçinin xalça məmulatlarından çul, heybə, məfrəş, ləməqabağı bədii quruluşu, rəng ahəngdarlığı, zərif toxunuşu və özünəməxsus naxışları ilə seçilir. Şirvan, Quba, Bakı, Qazax, Qarabağ və Təbrizin xalçaçılıq məktəblərinə aid bu unikal eksponatlar çoxmənalı elementlərlə, stilizə edilmiş zoomorf və nəbati ornamentlərlə zəngindir.

Xalq rəssamları Lətif Kərimov, Kamil Əliyev və Eldar Mikayılzadənin müəllifi olduğu müasir dövrə aid xalçalar və eskizlər də sərgidə xüsusi yer tutur.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Monteneqro Mədəniyyət və Media Nazirliyinin dəstəyi, Azərbaycan Milli Xalça Muzeyi və Monteneqro Milli Muzeyinin təşkilatçılığı ilə keçirilən sərgi avqustun 31-dək davam edəcək.

## Dövlət sərhəddən başlayır...

18 avqust Azərbaycanda sərhədçilərin peşə bayramıdır. 18 avqust 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edib. Qanuna əsasən, Xalq Cümhuriyyəti Hərbi Nazirliyinin tərkibində Azərbaycanın ilk sərhəd qoşun dəstəsi yaradılıb.

Prezident Heydər Əliyevin 2000-ci il 16 avqust tarixli fərmanı ilə avqustun 18-i Azərbaycanda "Sərhəd Qoşunları günü" elan edilib.

Sovet dövründə Sərhəd Qoşunları Dövlət Təhlükəsizlik Komitəsinin strukturu kimi mövcud olub, Azərbaycan müstəqilliyini bərpa edəndən sonra da sərhəd xidməti bir müddət Milli Təhlükəsizlik Nazirliyinin tərkibində fəaliyyət göstərib. Prezident Heydər Əliyevin 2002-ci il 31 iyul tarixli sərəncamı ilə bu sahədə ayrıca qurum – Dövlət Sərhəd Xidməti (DSX) yaradılıb.

2020-ci ilin 44 günlük Zəfər salnaməsinə sərhədçilərimiz də qəhrəmanlıq töhfəsi veriblər. Artıq dördüncü ildir ki, onlar peşə bayramlarını ərazisi bütöv Azərbaycanın sərhədçiləri kimi ruh yüksəkliyi ilə qarşılayırlar.

Dövlət sərhəddən başlayır və bu gün sərhədçilərimiz Vətənin hüdudları keşiyində ayıq-sayıq dayanıblar.



Hər bir peşənin gələcəyi isə bu sahədə yetişən nəslin hazırlığından asılıdır. Sərhədçi günü ərəfəsində DSX-nin birləşmə və hərbi hissələrində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

DSX-nin Xüsusi məktəbində oxuyan uşaqlar da gün gələcək Vətənin sərhədləri keşiyində yerlərini alacaqlar.



Nəşrlərimiz "Kitab sənəti" müsabiqəsində qalib olub

səh. 3

"Arena di Verona"da azərbaycanlı vokalçı ilə üç axşam



səh. 5

# Olimpiadada yüksək nəticələrə görə pul mükafatları və təltiflər

Prezident İlham Əliyev Parisdə keçirilən XXXIII Yay Olimpiya Oyunlarında yüksək nəticələr göstərən Azərbaycan idmançılarına və onların məşqçilərinə pul mükafatlarının verilməsi barədə sərəncam imzalayıb.

Dövlət başçısının avqustun 13-də imzaladığı sərəncamla Paris Olimpiadasında birinci yeri tutan idmançıların hər biri 400 min, ikinci yeri tutan idmançılar 200 min, üçüncü yeri tutanlar isə 100 min manat mükafat alacaqlar. Medalçı olimpiyaçıların məşqçilərinə də onların aldıqları mükafatların 50 faizi məbləğində mükafatlar veriləcək.

Paris Olimpiadasında uğur qazanmış Azərbaycan idmançıları və onların məşqçiləri Milli Olimpiya Komitəsi (MOK) tərəfindən də mükafatlandırılıb. Qızıl, gümüş və bürünc medal almış idmançıların hər biri müvafiq olaraq 200 min, 100 min və 50 min manat, onların hər birinin məşqçisi, eləcə də medal qazanılmış idman növü üzrə komandanın baş məşqçisi qeyd olunan məbləğlərin yarısı qədər MOK-dan mükafat alacaqlar.

Bundan əlavə, dövlət başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə bir qrup idmançını və onların məşqçilərini medal və ordenlərlə təltif edib.

# Akademik Rafael Hüseynov "Şərəf" ordeni ilə təltif edilib

Görkəmli elm və mədəniyyət xadimi, Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov "Şərəf" ordeni ilə təltif edilib.

Prezident İlham Əliyev avqustun 7-də bununla bağlı sərəncam imzalayıb.

Sərəncamla Rafael Baba oğlu Hüseynov Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə yüksək dövlət təltifinə layiq görülüb.

Filologiya elmləri doktoru, professor, Əməkdar incəsənət xadimi Rafael Hüseynov 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilib. "Vaxtdan uca", "1002-ci gecə", "Məhsəti Gəncəvi – özü, sözü, izi", "Yoxdan var", "Əbədi Cavid" və s. kitabların, monoqrafiya və dərs vəsaitlərinin, yüzlərlə elmi və publisistik məqalənin, televiziya və radio verilişinin, bir neçə sənədli-publisistik filmin müəllifidir.

Beş dəfə (2000-ci ildən) Milli Məclisin deputatı seçilib.

Avqustun 12-də Rafael Hüseynovun 70 yaşı tamam olub.

Akademik Rafael Hüseynovu yubileyi və yüksək dövlət təltifi münasibətilə təbrik edirik!

# Mədəniyyət və yaradıcı sənayelər üzrə xaricdə ali təhsil imkanı

*əvvəli səh. 1-də*

Bununla yanaşı, namizədin Təqaüd Proqramı çərçivəsində təhsil almaq istədiyi müəssisə bu siyahıda yer almadığı təqdirdə həmin müəssisənin yerləşdiyi ölkənin MYS-lərin inkişafına dair göstəriciləri və ixtisaslaşma istiqamətləri üzrə kadr hazırlığı baxımından imkanları və uğurları nəzərə alınmaqla maliyyələşdirilməsi Komissiya tərəfindən məqsədəmüvafiq hesab edilə bilər.

Dövlət sifarişi və ya dövlət hesabına Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və ya magistratura səviyyələri üzrə təhsilin normativ müddətinin yarısından artıq müddətdə təhsil alan, habelə Azərbaycan Respublikasının dövlət proqramları və beynəlxalq müqavilələri (hökumətlərarası təqaüd proqramları) çərçivəsində xarici ali təhsil müəssisələrində bakalavriat və ya magistratura səviyyələri üzrə təhsilini başa vurmuş proqram iştirakçılarının eyni təhsil səviyyəsi üzrə proqram iştirakçılarının seçilməsində namizəd qismində iştirakı nəzərdə tutulmur.

Xatırladaq ki, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında nəzərdə tutulan "Mədəniyyət və Yaradıcı Sənayelərin (MYS) dinamik inkişafının təmin edilməsi və bu sahədə ixrac potensialının gücləndirilməsi" fəaliyyət istiqaməti üzrə MYS sahələrinin tələblərinə uyğun sertifikat proqramlarının və xaricdə təhsil üçün xüsusi təqaüd proqramının yaradılması ilə əlaqədar Mədəniyyət Nazirliyi əsas icraçı qurum olaraq müəyyənləşdirilib.

Mədəniyyət Nazirliyi Kollegiyasının qərarı ilə "Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi Təqaüd Proqramı" çərçivəsində "Təhsil alacaq şəxslərin seçilməsi meyarları, prosedurları və təhsilin maliyyələşdirilməsi Qaydaları" təsdiq olunub.

Sənəd qəbulu 15 avqust 2024-cü il tarixdən 15 sentyabr 2024-cü il tarixinədək davam edəcək.

Təqaüd Proqramı ilə bağlı əlavə məlumat almaq üçün avqustun 16-dan etibarən aşağıda qeyd olunan nömrə ilə əlaqə saxlamaq mümkündür:

012 525 11 28 (daxili: 102 və ya 103)

# "Gənclər sizin kimi olmaq istəyəcəklər"

## Prezident Olimpiada medalçılarını qəbul edib



Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir.

Prezident İlham Əliyev bu sözləri avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edərkən deyib.

İdmançıları, onların məşqçilərini təbrik edən dövlətimizin başçısı vurğulayıb ki, olimpiyaçılarımız ölkəmizi ləyaqətlə təmsil edib, Azərbaycan bayrağını ucaldıb, xalqımızı sevindiriblər.

Prezident onu da diqqətə çatdırıb ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb: "Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır.

Xüsusilə qızıl medalçılarımızı – Hidayəti və Zelimi ürəkdən təbrik etmək istəyirəm. Onlar Olimpiya Oyunlarının ilk günlərində bu qələbə sevincini xalqımıza bəxş etmişlər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda, davranış qaydaları, əlbəttə ki, hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bu liderliyi Olimpiya Oyunlarında bir daha təsdiq etmişlər. Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, ab-hava gözəl olanda nəticə də əlbəttə ki, göz qabağındadır".

Prezident İlham Əliyev sonra deyib: "Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir.

Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeniyetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq.

Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik".

Dövlətimizin başçısı onu da qeyd edib ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır: "Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir".

Prezident uzun illər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında ölkəmizin adını ucaldan veteran idmançılara da minnətdarlığını ifadə edib.

***

Olimpiya çempionları, cüdoçular Hidayət Heydərov və Zelim Kotsoyev Azərbaycan Prezidentinə xatirə hədiyyələri təqdim ediblər.

Dövlətimizin başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim edib.

Sonda xatirə şəkli çəkdirilib.

# Seçki kampaniyasının son iki həftəsi

## 125 yerə 1052 namizəd var

Sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb.




Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov avqustun 15-də çap prosesinin gedişi və bununla bağlı yaradılmış şəraitlə tanış olub. Qeyd olunub ki, seçki bülletenləri qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada çap edilib başa çatdırılmalı, bütün proses ərzində Seçki Məcəlləsinin müvafiq müddəalarına əməl olunmalıdır. MSK sədri diqqətə çatdırıb ki, VII çağırış Milli Məclisə seçkilərdə səsvermə üçün ümumilikdə 6 milyon 516 min 567 seçki bülleteni çap olunacaq.

Parlament seçkiləri ilk dəfə Azərbaycanın bütün ərazisində, 125 seçki dairəsində keçiriləcək. İşğaldan azad olunmuş ərazilərdə 34 seçki məntəqəsi yaradılıb.

Parlament seçkilərində 1052 nəfərin namizədliyi qeydə alınıb. Onlardan 308 nəfərinin namizədliyi siyasi partiyalar tərəfindən irəli sürülüb.

Yeni Azərbaycan Partiyası 125 seçki dairəsinin hamısından namizəd irəli sürüb. Namizədlərin sayına görə ikinci sırada Müsavat Partiyasıdır (24 namizəd). Dörd partiya seçkilərdə cəmi 1 namizədlə iştirak edəcək.

Namizədliyi qeydə alınan 1052 nəfərin 182-si işləmir. Namizədlərin 47 nəfəri pensiyaçı, 5-i isə tələbədir. Namizədlərdən ən yaşlısı 1937-ci il təvəllüdlü, ən gənci isə 2006-cı il təvəllüdlüdür.

Mədəniyyət sahəsində tanınan şəxslərdə deputatlığa namizəddir. Onların arasında keçmiş mədəniyyət naziri, Azərbaycanın Rusiyadaki səfiri Polad Bülbüloğlu (124 saylı Şuşa-Ağdam-Xocavənd seçki dairəsi), Türk Mədəniyyəti və İrsi Fondunun keçmiş prezidenti Günay Əfəndiyeva (14 saylı Xəzər-Pirallahı seçki dairəsi), ədəbiyyatşünas Elnarə Akimova (46 saylı Sumqayıt beşinci seçki dairəsi), Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov (63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi) və başqaları var.

Qeyd edək ki, Seçki Məcəlləsinin müvafiq müddəasına uyğun olaraq, avqustun 9-da deputatlığa namizədlərin rəsmi təşviqat kampaniyası başlayıb. Təşviqat kampaniyası səsverməyə bir gün qalmış, avqustun 30-da başa çatacaq.

# 6 ayda 2 milyard manat

2024-cü ilin yanvar-iyun ayları ərzində azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 2 milyard 56 milyon 358 min manat vəsait sərf edilib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 22,8% və ya 381 milyon 790 min manat çoxdur. 2023-cü ilin yanvar-iyun ayları ərzində azad edilmiş rayonlarda tikinti-quraşdırma işlərinə 1 milyard 674 milyon 568 min manat vəsait yönəldilib.

Hesabat dövründə ən çox vəsait Kəlbəcər (438,5 milyon manat), Ağdam (308,5 milyon manat) və Laçın (242,4 milyon manat) rayonlarına ayrılıb.

Bu dövrdə tikinti-quraşdırma işlərinə sərf edilən vəsait 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə Qubadlı 2,6 dəfə, Ağdamda 2,3 dəfə, Şuşada 52% artırılıb.

# Öz adları ilə yenidən torpağa tapşırıldılar

## Daha yeddi itkinin dəfn mərasimi olub

Birinci Qarabağ müharibəsində Azərbaycan torpaqlarını itirməklə bərabər, minlərlə şəhid vermişdi. Vətən övladları düşmənə qarşı mərdliklə, şücaətlə döyüşdü. Ölkəmizin hər kəndinə, şəhərinə şəhid xəbərləri gəldi. Dəfn edilən şəhidlərlə yanaşı, məzarları üzərinə naməlum şəhid yazılanlar da oldu.

Bununla belə, həmin savaşda niyə məğlub duruma düşdüyümüzün, Ermənistanın nəyin hesabına ərazilərimizi işğal etdiyinin səbəbləri, əslində, elə onda da hər kəsə bəlli idi.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində cəmi 44 günə illərlə köz bağlayan dərdlərə, acılara son qoyuldu. Ərazilərimizin işğaldan azad edilməsi ilə yanaşı, itkin düşmüş sayılan, torpağa adsız tapşırılan neçə-neçə igidin taleyi də məlum oldu. İndi onlar öz adları ilə, yaxınlarının, əzizlərinin iştirakı ilə yenidən torpağa tapşırılırlar.

Məlum olduğu kimi, Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası aidiyyəti qurumlarla birgə bu istiqamətdə müvafiq iş aparır.

Dövlət Komissiyası kimliyi müəyyən olunan daha yeddi itkin-şəhidlə bağlı məlumat yayıb.

Avqustun 15-də Cavanşir Ərşad oğlu Hüseynov, Tahir Şirin oğlu Şirinov, Elman Hüseyn oğlu Camalov və Əbülfəz Əbülfət oğlu Əbilov Abşeron rayonunun Mehdiabad qəsəbəsində yerləşən Şəhidlər xiyabanında, Camaləddin İbad oğlu İbrahimov paytaxtın Suraxanı rayonunun Əmircan kəndində, Qənbər Teymur oğlu Yarıyev Salyan rayonunun Şəhidlər xiyabanında, Təranə (Əsmayə) Davud qızı Zeynalova Bərdə şəhərində yerləşən Şəhidlər xiyabanında dəfn olunub.

***






Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş hərbçi Hüseynov Cavanşir (1960) və mülki şəxs Şirinov Tahir Şirin oğlu (1959) Cəbrayıl rayonunun Doşulu kəndində anadan olublar.

Qeyd edək ki, Şirinov Tahir Şirin oğlu 23 oktyabr 1993-cü il tarixdə atası Şirinov Şirin Bilal oğlu, qardaşı Şirinov Nazim Şirin oğlu və dayısı oğlu Hüseynov Cavanşir Ərşad oğlu ilə birlikdə Füzuli rayonunun Şükürbəyli kəndində itkin düşüb. Nazim Şirinovun qalıqları iyunun 7-də Mehdiabaddakı Şəhidlər xiyabanında dəfn olunub.

***

Birinci Qarabağ müharibəsində itkin düşmüş, 32 ildən sonra dəfn yeri və kimliyi müəyyənləşdirilən Elman Camalov 1970-ci ildə Bakının Nəsimi rayonunda, Alatava qəsəbəsində anadan olub. 1991-ci ilin noyabr ayında Malıbəylidə gedən döyüşlərdə iştirak edib. 1992-ci ilin yanvar ayında Daşaltı əməliyyatında itkin düşüb.Onun qalıqları 32 il sonra Daşaltı ətrafında aşkarlanan kütləvi məzarlıqda tapılıb və kimliyi müəyyən edilib.

***

Əbülfəz Əbülfət oğlu Əliyev 1961-ci ildə Saatlı rayonunun Şirinbəy kəndində anadan olub. 1993-cü ilin dekabr ayında hərbi xidmətə gedib. 1994-cü ildə itkin düşməsi barədə ailəsinə məlumat verilib. Əbülfəz Əbilov isə 1994-cü ilin yanvarın 1-də Füzuli rayonun Aşağı-Seyid Əhmədli kəndində şəhidlik zirvəsinə yüksəlib. Əbülfəz Əbilovun qalıqları 30 ildən sonra Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndində yerləşən kütləvi məzarlıqdan tapılıb, kimliyi müəyyən edilib.

***

Yarıyev Qənbər Teymur oğlu 1966-cı ildə Salyanda dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qoşulub. 1992-ci il yanvarın 26-da Şuşa rayonu Daşaltı kəndi ərazisində gedən döyüşlər zamanı itkin düşüb. Onun nəşinin qalıqları Daşaltı kəndindəki kütləvi məzarlıqda aşkarlanıb.

***

Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab olunan İbrahimov Camaləddin İbad oğlu 1994-cü ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndi istiqamətində gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

***

Təranə (Əsmayə) Davud qızı Zeynalova 1970-ci ildə Kəlbəcərdə anadan olub. O, 1993-cü il martın 31-də Kəlbəcər rayonunun Qamışlı kəndi istiqamətində, "Tunel" deyilən yerdə qardaşları Məhəmməd, Nizami və Farizlə birgə itkin düşmüşdü. Onun nəşinin qalıqları Laçının Malıbəy kəndi istiqamətində tapılıb.

# Nəşrlərimiz MDB-nin növbəti “Kitab sənəti” müsabiqəsində qalib olub

## Mükafatlar sentyabrda Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında veriləcək

Xəbər verildiyi kimi, Müstəqil Dövlətlər Birliyi (MDB) İcraiyyə Komitəsinin təşkilatçılığı ilə XXI Beynəlxalq “Kitab sənəti” Müsabiqəsi keçirilib.

Ənənəvi müsabiqə bu il 7-8 avqust tarixlərində Tacikistanın paytaxtı Düşənbə şəhərində təşkil olunub. Müsabiqədə Azərbaycan da müxtəlif nominasiyalar üzrə çap məhsulları ilə təmsil olunub.

Ümumilikdə 6 ölkədən fərqli nominasiyalarda 64 adda kitab təqdim edilib. Açıq səsvermə yolu ilə hər nominasiya üzrə nəşrlərin seçimi aparılıb. Nəşrlər haqqında iştirakçı ölkələrin nümayəndələrinə ətraflı məlumat verilib.



Budəfəki müsabiqəyə Azərbaycandan 9 adda kitab təqdim olunub. Ölkəmizin nəşrləri 4 nominasiya üzrə I, 2 nominasiya üzrə II, 3 nominasiya üzrə III yerlərə layiq görülüb.

“Kitab sənəti” müsabiqəsinin mükafatlarının təqdimatı sentyabr ayında keçiriləcək ənənəvi Moskva Beynəlxalq Kitab Sərgi-Yarmarkasında olacaq.

Qeyd edək ki, MDB İcraiyyə Komitəsinin təşkilatçılığı ilə “Kitab sənəti” müsabiqəsi 2004-cü ildən keçirilir.

Azərbaycan bu müsabiqədə fəal iştirak. Ötən illərdə kitablarımız müxtəlif nominasiyalarda qalib olub, həmçinin müsabiqənin baş mükafatını (Qran pri) qazanıb.

2023-cü ildə müsabiqəyə 6 ölkədən 68 kitab təqdim edilmişdi. 2022-ci ildə “Kitab sənəti” müsabiqəsində Azərbaycan 3 nominasiya üzrə 1-ci, 4 nominasiya üzrə 2-ci, 2 nominasiya üzrə 3-cü yerə layiq görülüb.

# “Füzulidə yay məktəbi” – dövlət və özəl sektorun əməkdaşlığı

*əvvəli səh. 1-də*

Daha sonra Kurmanqazı adına Uşaq yaradıcılıq mərkəzinin kollektivi Azərbaycan və qazax dillərində əbədi-bədii kompozisiyalarla çıxış ediblər. Füzuli məktəblilərinin ifasında Azərbaycan muğamları, qazax folklor nümunələri dinlənilib, hər iki xalqın rəqsləri nümayiş olunub, həmçinin mərkəzin xor kollektivi tərəfindən musiqi nömrələri səsləndirilib.

Gün ərzində məktəblilər üçün rəsm dərsləri, taxta üzərində oyma üzrə ustad dərsi və əyləncəli oyunlar keçirilib.

Sonda tədbirin təəssüratlarını öyrənmək üçün məktəblilərlə sorğu sessiyası təşkil olunub.



Bildirək ki, yay məktəbi çərçivəsində ümumilikdə 200-dək şagird üçün maraqlı proqram tərtib edilib. Tanınmış təhsil, sənət, idman xadimləri müxtəlif təqdimatlarla çıxışlar edəcək, əyləncəli məzmunlu proqram təşkil olunacaq.

Yay məktəbinin ikinci günündə Qarabağ bölgəsi musiqi məktəbləri şagirdlərinin Əməkdar artist, xanəndə Təyyar Bayramovun rəhbərliyi ilə “Qarabağ bülbülləri” Füzulidə” adlı konsert proqramı da keçiriləcək.

Digər günlərdə Xalq artistləri – opera müğənnisi Samir Cəfərov və aktyor Vidadi Həsənov, yazar, ədəbiyyatşünas Ramil Əhmədin müvafiq sahələr üzrə ustad dərsləri təşkil olunacaq.

Şagirdlərin valideynləri ilə görüşlər, məsləhət saatları, eləcə də açıq məkanda əyləncəli yarışmaların keçirilməsi də nəzərdə tutulur.

Qeyd edək ki, yay məktəbi dövlət və özəl sektorun əməkdaşlığı ilə reallaşır. “Sirab”, “Azərçay” və “Nort Vest” şirkətləri də layihəyə dəstək verir.

# “YAŞAT” Fondunun “Ənənə”si

## Şəhid övladları üçün yay düşərgəsi

Avqustun 13-dən 18-dək Göygöl rayonunun Milli Yaylaq Festivalı ərazisində şəhid övladları üçün “Ənənə” yay düşərgəsi keçirilir. Düşərgə “YAŞAT” Fondunun təşkilatçılığı, Göygöl Rayon İcra Hakimiyyətinin, “Cavad xan” Tarix və Mədəniyyət Fondunun tərəfdaşlığı, “Bakcell”in baş sponsorluğu ilə təşkil edilib.

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hərbi vətənpərvərlik və milli ənənələr mövzusunda təşkil olunan düşərgədə 50-dək şəhid övladı iştirak edir.

Açılış mərasimində “YAŞAT” Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov, Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Elvin Paşayev və digər rəsmilər iştirak ediblər.

Düşərgədə iştirakçılar üçün oxatma, atçılıq və digər qədim milli oyun növləri üzrə yarışlar keçirilir.




Xatırladaq ki, “YAŞAT” Fondunun təşkilatçılığı ilə şəhid övladları üçün bundan əvvəl Londonda yay məktəbi, Antalyada isə yay düşərgəsi keçirilib. Fond tərəfindən şəhid övladları üçün mütəmadi olaraq düşərgələr, müxtəlif kurslar, layihələr və təlimlər təşkil edilir, onların yüksək səviyyəli təhsilinə dəstək göstərilir.

***

Şəhid və qazi övladları üçün daha bir yay düşərgəsi Elm və Təhsil Nazirliyi N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının dəstəyi ilə təşkil olunub. Bu, “Əmanət – şəhid və qazi övladlarının fərdi inkişafına dəstək layihəsi” çərçivəsində 4-cü yay düşərgəsidir.

Rəsədxanada bildirilib ki, 2024-cü ildə devizi “Təbiətə əmanət” olan düşərgədə ətraf mühitin qorunması ilə bağlı müxtəlif təlim və əyləncələr üstünlük təşkil edib, mentorlarla görüş təşkil olunub.

Rəsədxananın muzeyinə ekskursiya keçirilib, rəsədxananın tarixi, Yardımlı meteoriti, digər daha kiçik meteorit nümunələri və digər eksponatlar haqqında məlumat verilib.

Düşərgə müddətində “Təkrar emal” master-klası, Şamaxı Safari parkına və Dəmirçi Arxeologiya Muzeyinə də ekskursiyalar təşkil olunub.

# “Dəyişikliyin sədaları” – COP29-la bağlı sənədli film müsabiqəsi

COP29 Azərbaycan Əməliyyat Şirkəti qlobal iqlim problemləri və onların həll yollarına geniş ictimaiyyətin diqqətinin cəlb olunması istiqamətində fəaliyyətin davamı olaraq beynəlxalq sənədli film müsabiqəsi elan edib.




“Dəyişikliyin sədaları: qlobal iqlim fəaliyyətinə baxış” adlı müsabiqədə iştirak üçün dünyanın istənilən ölkəsindən sənədli film çəkilişləri sahəsində təcrübəsi olan şəxs və şirkətlər dəvət olunurlar.

Təşəbbüsün əsas məqsədi qlobal iqlim fəaliyyətinin gündəmdə saxlanılması, ətraf mühit problemlərinin həllinə yönələn kollektiv səylərin səsinə səs vermək dir. Layihə sənədli film müəlliflərinin yaradıcı potensialını aktual iqlim mövzularına yönəldərək bu sahədə fəaliyyət göstərən şirkət və şəxslər üçün iqlim problemlərinin həllində öz kreativ yanaşmalarının tətbiqi üzrə təşviqat platforması olacaq.

Müsabiqənin mövzuları biomüxtəliflik və ekosistemlərin qorunması, su ehtiyatlarının səmərəli idarə olunması, gender və ətraf mühit məsələlərinin təsirləri, yerli bilik və təcrübələr, bərpaolunan enerji həlləri kimi müxtəlif istiqamətləri əhatə edir. Videomateriallar 5 nominasiya üzrə ixtisaslaşmış ekspert komissiyası tərəfindən qiymətləndiriləcək.

Müsabiqənin şərt və tələbləri barədə ətraflı məlumatı COP29 rəsmi veb-səhifəsindən (cop29.az) əldə etmək olar. Qeyd olunmuş tələblərə cavab verən videoməhsullar sentyabrın 15-dək documentary.competition@cop29.az elektron poçt ünvanına göndərilməlidir.

# “Bir peşənin sirri” – peşə təhsili festivalı

Avqustun 14-də Bakıda, “Xalqlar dostluğu” metrosunun yaxınlığında yerləşən Heydər parkında Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin təşkilatçılığı ilə “Bir peşənin sirri” festivalı keçirilib.




Agentlikdən bildirilib ki, sayca beşinci festivalda həm paytaxtda yerləşən, həm də regionlardakı peşə təhsili müəssisələri təmsil olunub.

Agentliyin direktoru Ceyhun Kərəmov və Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini Könül Həsənova tədbirdə çıxış ediblər. Belə tədbirlərin gənclərin peşə seçiminə müsbət təsir göstərdiyi vurğulanıb.

Festivalda peşə məktəblərinin turizm, mədəniyyət, sənaye, kənd təsərrüfatı, İKT və ictimai iaşə istiqamətlərində təhsil alan tələbələrinin əl işlərindən ibarət sərgilər, ustad dərsləri təqdim edilib. İştirakçılar arasında əyləncəli və maarifləndirici xarakterli müxtəlif yarışlar (meyvə salatının hazırlanması, konturların səliqəli rənglənməsi və s.) keçirilib. Saç düzümü, makiyaj, rəngli saplarla əl işləri, kokteyl hazırlanması kimi ustad dərsləri də böyük marağa səbəb olub.

Festival gənclər arasında peşə təhsilinə marağın artmasında və onların gələcək peşə seçimində mühüm rol oynamaqla yanaşı, cəmiyyətin bu sahəyə olan diqqətini dəstəkləyir.

Yeri gəlmişkən, 12 avqustda 2024–2025-ci tədris ili üçün peşə təhsili müəssisələrinə tələbə qəbulu prosesinə yekun vurulub. Qəbulun I mərhələsində www.portal.edu.az platforması vasitəsilə 27 269 şəxs 87 656 ixtisas üçün müraciət edib.

Peşə təhsili almaq istəyən şəxslər daha çox İKT, turizm, sənaye, kənd təsərrüfatı və iaşə istiqamətlərində olan ixtisasları seçməyə üstünlük veriblər. Müsabiqə nəticələrinin 17 avqust tarixində elan olunması nəzərdə tutulur.

# Yeni dərs ilində Dövlət Proqramı üzrə 500 nəfər xaricdə təhsil alacaq

“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı”na 2024–2025-ci tədris ili üzrə həyata keçirilən sənəd qəbuluna dair yekun siyahı açıqlanıb.



Elm və Təhsil Nazirliyindən bildirilib ki, növbəti tədris ilində Dövlət Proqramı çərçivəsində bakalavriat səviyyəsi üzrə 125, magistratura səviyyəsi üzrə 375 nəfər olmaqla ümumilikdə 500 namizəd xaricdə təhsil alacaq.

Təqaüd qazanan 500 gəncin 135-i universitetlər üzrə dünya reytinq cədvəllərində ilk onluqda olan ali təhsil müəssisələrində təhsil alacaq. O cümlədən 15 nəfər “Columbia University”, 7 nəfər “Harvard University”, 7 gənc “University of Cambridge” kimi nüfuzlu ali məktəblərdə oxuyacaq.

Xaricdə təhsil alacaq gənclərlə bağlanılacaq müqavilənin müvafiq şərtinə əsasən, proqram iştirakçısı təhsili bitdikdən sonra 2 ay ərzində ölkəyə qayıtmalı və 5 il müddətinə əmək fəaliyyəti ilə məşğul olmalıdır.

Xatırladaq ki, daha öncə 2026-cı ilədək nəzərdə tutulan Dövlət Proqramının müddəti 2 il uzadılıb.

Prezident İlham Əliyev avqustun 12-də bununla bağlı sərəncam imzalayıb. Sərəncamla Dövlət Proqramına müvafiq dəyişikliklər edilib. Proqram üzrə xaricdə təhsil üzrə illik kvota 400 nəfərdən 500 nəfərədək artırılıb. Həmçinin Dövlət Proqramına doktorantura təhsili əlavə edilib.

İndiyədək Dövlət Proqramında xaricdə təhsil üzrə yerlərin ən azı 80 faizi magistratura səviyyəsini əhatə edib. Dəyişikliyə əsasən, 2025-ci ildən başlayaraq Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin 25 faizindən çox olmayan hissəsi bakalavriat səviyyəsini və 20 faizindən çox olmayan hissəsi ali təhsilin doktorantura səviyyəsini əhatə edəcək. Qalan yerlər magistratura səviyyəsi üçün nəzərdə tutulacaq.

# BMT də feyk xəbərlərdən narahatdır

BMT-nin Baş Assambleyası dezinformasiyanın yayılması ilə bağlı narahatlığını ifadə edib və baş katibin feyk xəbərlərə qarşı mübarizədə beynəlxalq əməkdaşlığı təşviq etmək istiqamətində səylərini alqışlayır.



BMT-nin saytı xəbər verir ki, baş katib Antonio Quterreş dezinformasiyaya qarşı mübarizə üzrə dövlətlər, BMT-nin qurumları və digərləri tərəfindən paylaşılan məlumatlara və ən yaxşı təcrübələrə əsaslanan hesabat təqdim edib.

“İnsan hüquqlarının və əsas azadlıqların təşviqi və müdafiəsi üçün dezinformasiyaya qarşı mübarizə” adlı hesabat dezinformasiyanın yaratdığı problemləri və ona qarşı mübarizə yollarını göstərir, müvafiq beynəlxalq hüquqi bazanı müəyyən edir, dövlətlərin və texnologiya müəssisələrinin bu istiqamətdə gördüyü tədbirləri müzakirəyə çıxarır.

“Dezinformasiyaya qarşı mübarizə cəmiyyətdə dayanıqlığın, düzgün media və informasiya mühitinin yaradılmasının təmin edilməsinə davamlı investisiya qoyulmasını tələb edir. Son onilliklər insanların qarşılıqlı əlaqə, ünsiyyət və dünya haqqında məlumat əldə etmə üsullarını tamamilə dəyişdirən sürətli texnoloji dəyişikliklərlə yadda qaldı. İnsanlar indi bütün bəşəri biliklərə sahibdirlər, xəbərlər və məlumatlar saniyələr ərzində yayılır”, – deyə hesabatın giriş hissəsində vurğulanır.

Hesabatda qeyd olunur ki, bəzən dezinformasiya dövlət və ya qeyri-hökumət aktorları tərəfindən də yayılır. Bu, geniş insan hüquqlarına təsir göstərə, dövlət siyasətinə reaksiyaları sarsıda və ya fövqəladə vəziyyət, silahlı münaqişə zamanı gərginliyi artırar. Seçki prosesi, ictimai sağlamlıq, silahlı münaqişələr və ya iqlim dəyişikliyi kimi müxtəlif məsələlərlə bağlı dezinformasiya ilə əlaqədar narahatlıqların yarana biləcəyi çoxsaylı və müxtəlif kontekstləri nəzərə alaraq beynəlxalq ictimaiyyət yanlış məlumatları yayanlara qarşı mübarizədə səylərini birləşdirməlidir.

# ATƏT missiyası parlament seçkilərində medianın vəziyyəti ilə maraqlanır

Medianın İnkişafı Agentliyində ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati və media analitiki Kira Kalinina ilə görüş keçirilib.



Agentliyin icraçı direktoru Əhməd İsmayılov Azərbaycanda media landşaftı, bu sahədə həyata keçirilən islahatların gedişatı, agentliyin əsas fəaliyyət istiqamətləri barədə məlumat verib, qonaqların suallarını cavablandırıb. 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə medianin fəaliyyəti ilə əlaqədar müzakirələr aparılıb.

***

Avqustun 14-də Azərbaycan Respublikası Audiovizual Şurasında da ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun Seçki Müşahidə Missiyasının media analitiki Kira Kalinina ilə görüş keçirilib.

Şuranın aparat rəhbəri Fazil Novruzov qonağa “Media haqqında” Qanunun qəbul olunmasından sonra audiovizual medianın tənzimlənməsi sahəsində yeniliklər, lisenziyalaşdırma, televiziya və radio kanallarının monitorinqi barədə məlumat verib.

Növbədənkənar parlament seçkiləri ilə bağlı televiziya və radio yayımında seçkiqabağı təşviqatın aparılması, təşviqat kampaniyasının monitorinq olunması və digər məsələlərlə bağlı qonağı maraqlandıran suallar cavablandırılıb.

№59-60 (2125)
16 avqust 2024
www.medeniyyet.az

# Gəncə filarmoniyasının yeni layihələri

F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası Mədəniyyət Nazirliyinin və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə sentyabrın 11-dən 15-dək "Nizami günləri" keçirəcək.




Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş layihə çərçivəsində elmi konfrans, "Qiraət axşamı", muğam və romanslardan ibarət konsert proqramı, Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı rəqs heyətinin çıxışı, Əfrasiyab Bədəlbəylinin "Nizami" operasının nümayişi nəzərdə tutulur.

"Nizami günləri" dahi şairin məqbərəsinin önündə keçiriləcək.

***

Gəncə Dövlət Filarmoniyası 18-20 sentyabr tarixlərində "Musiqinin gücü" layihəsini təqdim edəcək. Layihə 18 sentyabr – Milli Musiqi Gününə həsr olunub.

Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə keçiriləcək layihə çərçivəsində filarmoniyanın kamera orkestri, xalq çalğı alətləri ansamblı və Gəncə-Daşkəsən Regional Mədəniyyət İdarəsinin nəzdində fəaliyyət göstərən musiqi məktəblərinin konsertləri olacaq.

Layihənin məqsədi klassik musiqinin, milli dəyərlərimizin təbliğinə töhfə vermək və insanların asudə vaxtının səmərəli keçməsinə xidmət etməkdir. Konsertlərə giriş sərbəstdir.

# "Yaşıl həyat – bir yay əyləncəsi"

Gədəbəy Rayon İcra Hakimiyyəti, Qazax-Tovuz RMİ-nin tabeliyində fəaliyyət göstərən Gədəbəy rayon mədəniyyət müəssisələri, Gənclərin İnkişaf və Karyera Mərkəzi Qazax-Tovuz regional nümayəndəliyinin Gədəbəy bölməsi, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Gədəbəy rayon komitəsinin birgə təşkilatçılığı ilə "Yaşıl həyat – bir yay əyləncəsi" adlı festival keçirilib.



Festivalda Gədəbəy Tarix-Diyarşünaslıq Muzeyi tarixi eksponatlardan, rayon MKS kitablardan ibarət sərgilər təşkil ediblər. İstedadlı gənclərin əl işləri də nümayiş olunub. Rayon gənclərinin çəkdikləri müxtəlif rəsmlər münsiflər heyəti tərəfindən dəyərləndirilib.

Açıq havada baş tutan tədbirdə gənclər saz, qarmon, tar və nağarada öz bacarıqlarını nümayiş etdiriblər. Əyləncəli oyunlar, viktorinalar, animasiya filmlərinin nümayişi təşkil olunub, stolüstü tennis, bilyard yarışları keçirilib.

Müsabiqə və yarışlarda fərqlənənlər fəxri fərman və hədiyyələrlə təltif olunub.

# "Euronews" kanalında Qəbələ haqqında reportaj

"Euronews" telekanalı Azərbaycan Turizm Bürosu ilə əməkdaşlıq çərçivəsində hazırladığı "Qəbələdə arxeoloji möcüzələr və adrenalin dolu macəra" adlı videoreportaj yayımlayıb.




Dövlət Turizm Agentliyindən verilən məlumata görə, reportajda qədim Qafqaz Albaniyasının paytaxtı Qəbələnin Çuxur kəndində aparılmış arxeoloji qazıntılar, tapılan saxsı qablar, təndir, digər tarixi və mədəni irs nümunələrindən bəhs olunur.

Həmçinin milli mətbəx nümunələrinin dadına baxılır, onların hazırlanma qaydası və tarixi haqqında ətraflı məlumat verilir.

Reportaj Qəbələnin təbiət mənzərələrinin nümayişi və turizm istirahət kompleksində kanat gəzintisi ilə davam edir.

Telekanal əməkdaşı turizm istirahət kompleksində yay turizmi üzrə təqdim edilən xidmətlərdən istifadə edərək təəssüratlarını izləyicilərlə bölüşür.

# Yerlərdə mədəni həyat

Quba rayon MKS-nin Uşaq şöbəsinin təşkilatçılığı ilə "Quba meydanı" mədəniyyət və istirahət parkında uşaqlara səyyar kitabxana xidməti göstərilib. Səyyar xidmətin təşkilində əsas məqsəd kiçikyaşlı oxucuların kitabxanaya, kitaba marağını artırmaq, onlarda mütaliə vərdişlərini inkişaf etdirməkdən ibarət olub.

Sərgidə kitabxanaya daxil olmuş yeni ədəbiyyat, oxucuların maraq dairəsinə uyğun kitablar nümayiş etdirilib. Yeni dərs ilinin başlanmasına qədər açıq havada belə sərgilərin davamlı olaraq təşkil edilməsi nəzərdə tutulub.

***






Hacıqabul rayon Heydər Əliyev Mərkəzi və rayon Tarix-Diyarşünaslıq Muzeyinin birgə təşkilatçılığı ilə "Qəhrəman böyüdən analar" layihəsi həyata keçirilir. Layihənin məqsədi şəhid valideynlərinə mənəvi dəstək olmaq, şəhidləri tanıtdırmaq və gənc nəslin vətənpərvər ruhda tərbiyəsinə töhfə verməkdir. Layihə çərçivəsində ilk olaraq Azərbaycan Ordusunun 2023-cü ilin 19-20 sentyabr tarixlərində Qarabağda həyata keçirdiyi antiterror əməliyyatı zamanı şəhidlik zirvəsinə yüksəlmiş Əlimirzə Mirzəyevin ailəsi ziyarət edilib, şəhidin ev-muzeyi ilə tanışlıq olub.

***

Ağdaş Dövlət Rəsm Qalereyası və Gənclərin İnkişaf və Karyera Mərkəzi Ağdaş nümayəndəliyinin təşkilatçılığı ilə Heydər Əliyev parkında ustad dərsi təşkil olunub. Gənclər geyim üzərində rəngli boyalarla müxtəlif rəsmlər çəkiblər.

***

Ağstafa Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə Heydər Əliyev adına istirahət parkında "Fırçadakı dünyam" adlı rəsm sərgisi keçirilib. Sərgidə canlı musiqinin müşayiəti ilə yerli rəssamların, həmçinin istedadlı uşaq və gənclərin əl işləri nümayiş etdirilib.

***

Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Tariximiz qürurumuzdur" layihəsi çərçivəsində Vətən müharibəsi şəhidi Kənan Axundzadənin doğum gününə həsr olunmuş tədbir keçirilib.

Lənkəran şəhər Mədəniyyət Mərkəzində gerçəkləşən tədbirdə qonaqlar şəhidin şəxsi əşyalarından və fotolarından ibarət sərgi ilə də tanış olublar. Məktəblilər şeirlər söyləyib, müğənnilərin ifasında şəhidlər haqqında mahnılar səsləndirilib. Heydər Əliyev Mərkəzinin rəsm studiyasında yağlı boya ilə çəkilmiş Kənan Axundzadənin portreti şəhidin anasına təqdim edilib.

***

Qubadlı rayon Vasili Əliyev adına Mədəniyyət evi və rayon Mahmudlu kənd Mədəniyyət evinin (Sumqayıt şəhəri) birgə təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə "Ekologiya və sağlam həyat" mövzusunda dəyirmi masa keçirilib. Bədii qiraət dərnəyinin üzvləri təbiətin tərənnümünə həsr olunan şeirlər səsləndiriblər.





Cəlilabad rayon Şabanlı kənd Mədəniyyət evində "Dünyamızı qoruyaq!" devizi altında iməcilik təşkil edilib. İməcilik zamanı müəssisənin yerləşdiyi ərazidə təmizlik işləri aparılıb.

Lerik rayon Mədəniyyət Mərkəzi və rayon Gənclər və idman sektorunun təşkilatçılığı ilə "Breyn rinq" intellektual oyunu üzrə yarış keçirilib. Gənclərdən ibarət 5 komandanın iştirak etdiyi yarışda "Qacar" komandası I, "Turan" komandası II, "Bayraqdar" komandası isə III yerə layiq görülüb.

***

Salyan Tarix-Diyarşünaslıq Muzeyi və "Nuray" art-studiyasının birgə təşkilatçılığı ilə "Tarixin rəngləri" mövzusunda ustad dərsi keçirilib. İştirakçılara ebru sənəti və keramika üzərində iş mövzusunda məruzələr söylənilib, əyani olaraq əl işləri hazırlanıb.





# Gənclər cəmiyyətin aparıcı qüvvəsidir



Bölgələrdə 12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə müxtəlif tədbirlər keçirilib.

Masallı rayon Mərkəzi Kitabxanasında Beynəlxalq Gənclər Günü ilə əlaqədar keçirilən tədbirdə əlamətdar günün tarixindən danışılıb. Bildirilib ki, 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda hər il 12 avqustun dünyada Beynəlxalq Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Bu əlamətdar gün gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədilə qeyd olunur.

Yardımlı rayon Mərkəzi Kitabxanasında "Gənclər cəmiyyətin aparıcı qüvvəsidir" mövzusunda dəyirmi masa keçirilib. Qeyd edilib ki, hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, ana dilimizi, ata-babalardan qalan adət-ənənələrimizi qoruyub yaşadır.

***



Şirvan Dövlət Rəsm Qalereyası və Gənclər evinin birgə təşkilatçılığı ilə rəsm müsabiqəsi keçirilib. Müsabiqədə 30-dək yeniyetmə və gənc rəssam iştirak edib. Rəssamlar müxtəlif mövzulara həsr olunan əsərlər çəkiblər. Sonda qalib müəlliflər mükafatlandırılıblar.

***

Qazax rayon MKS-nin Elmar Hüseynov adına Mərkəzi Kitabxanası "Azərbaycan dövlətinin gənclər siyasəti" adlı görüş keçirib. Qazax rayon Mədəniyyət Mərkəzində təşkil olunan görüşdə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan müstəqil Azərbaycanın gənclər siyasəti haqqında söz açılıb. Qeyd olunub ki, milli və dövlətçilik maraqları ilə inkişaf edib təkmilləşən gənclər siyasəti nəticəsində bu gün gənclərimiz Vətəninə, milli-mənəvi dəyərlərinə sədaqət ruhunda tərbiyə alırlar.



Tədbirdə gənclər şeirlər söyləyib, bilik yarışı təşkil edib, müxtəlif sahələrlə bağlı yeni kitablarla tanış olublar.

**Hazırladı: N.Məmmədli**

# Əlişah qalasında XII-XIV əsrlərə aid tapıntılar



Astara rayonunun Alaşa kəndi ərazisində yerləşən Əlişah qalasında aparılan tədqiqatlar zamanı yeni maddi mədəniyyət nümunələri üzə çıxıb. İyulun 15-dən başlanan tədqiqatlar zamanı miniatür saxsı materiallardan hazırlanan kasalar və saxsı borudan hazırlanan kanalizasiya xətti aşkarlanıb.

Ekspedisiyanın rəhbəri, tarix üzrə fəlsəfə doktoru Mikayıl Mustafayevin sözlərinə görə, maddi mədəniyyət nümunələri əsasən XII-XIV əsrləri əhatə edir: "Həmin kaşıların qalada aşkar olunması çox möhtəşəm memarlıq üslubunda bir binanın olmasının göstəricisidir. 8 metr uzunluqda saxsı borudan hazırlanmış kanalizasiya xətti aşkar olunub, bu da o deməkdir ki, biz qazıntının təməlinə gəlib çatmışıq. Bura el arasında Divəkə qalası, "divlər evi" adlandırılıb".

Ekspedisiyanın üzvü Ülkər Camalova bildirib ki, qalada daha çox fayans tipli keramika nümunələri tapılıb: "Kaşı nümunələri XII əsrin ortalarından XIII əsrin əvvəllərinə qədər məhz firuzəyi rəngdə üstünlük təşkil edirdi. XIII əsrin ortalarından XIV əsrin əvvəllərinə qədər artıq bu rəng çalarları genişlənməyə başladı. Tünd-göy, mavi, qara, ağ rəngli nümunələrə daha çox rast gəlinir. Azərbaycanda kaşının ən gözəl nümunələrinin istehsalı XIII əsrdən başlayıb. Buna Cənubi Azərbaycanda, hazırda Marağa şəhərində, Qırmızı Gümbəz adlanan abidədə rast gəlinir. Təbrizdəki Göy məsciddə də kaşılardan geniş istifadə olunub. Naxçıvanda Möminə xatın türbəsinin dekorativ-estetik görünüşünü kaşılar bəzəyib".

Alaşa kəndi ərazisində 70 metr hündürlükdə yerləşən Əlişah qalası İran ilə həmsərhəddir. Qaladan Xəzər dənizi aydın müşahidə olunur. Bu da o deməkdir ki, ərazi müşahidə qalası kimi düzgün strateji mövqedə seçilib.

# Keşikçidağda arxeoloji qazıntıların birinci mərhələsi yekunlaşıb

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun ərazisində aparılan arxeoloji qazıntıların birinci mərhələsi yekunlaşıb.



AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri dosent Bəxtiyar Cəlilovun rəhbərlik etdiyi tədqiqatlarda əsas məqsəd ərazidə qeydiyyata alınmış kurqanların elmi dövriyyəyə cəlb edilməsi, onların elmi potensialının müəyyənləşdirilməsi, Keşikçidağın mədəni irsinin tədqiqi və təbliğidir.

Qoruqdan bildirilib ki, arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət nümunələri bu ərazinin qədim sakinlərinin təsərrüfat həyatının, sosial-iqtisadi münasibətlər sisteminin, tayfa məskunlaşmasının və dini dünyagörüşünün bəzi xüsusiyyətlərini aydınlaşdırmağa imkan verir.

Ərazidə iki istiqamətdə kurqanlarda qazıntılar aparılıb. Birinci istiqamət Ağstafa rayonunun Ağgöl kəndindən 600 metr şimal-şərqdə qeydə alınmış kurqanlar, ikinci istiqamət isə Sarısoy kurqanlarıdır.

Sarısoy kurqanları özündə Xocalı-Gədəbəy mədəniyyətinin izlərini yaşadır və bu mədəniyyəti öyrənmək üçün əhəmiyyət kəsb edən dəfn adətləri mövcuddur. Kurqanın çox kiçik – uzunluğu təxminən 1,5 metr, eni 1 metr olan kamera (qəbir) hissəsi var. Burada 3 ədəd saxsı küp aşkar olunub. Qəbir kamerası şimal-qərb, cənub-şərq istiqamətində qurulub və bir nəfər dəfn olunub. Skeletin üzü cənub-qərbə doğrudur, sağ böyrü üstə və bükülü vəziyyətdədir. Maraqlı cəhətlərdən biri də odur ki, skeletin ön hissəsində qəbir boyunca ev heyvanı (keçi və ya qoyun) basdırılıb. İnsan və heyvan sümüklərinin düzümündən sonra kamerada boş yer qalmayıb. Belə qəbir abidələrinin tədqiqi Xocalı-Gədəbəy mədəniyyətində tayfaların dəfn adətlərini, dünyagörüşünü öyrənmək üçün mühüm rol oynayır. Əldə olunan nəticələr elmi dövriyyəyə məqalələrlə daxil ediləcək.

Ərazidə elmi-tədqiqat və arxeoloji qazıntı işləri davam etdiriləcək. Həmçinin "Keşikçidağ" qoruğunda növbəti yay məktəbi layihəsi həyata keçiləcək. Layihədə Bakı Dövlət Universitetinin, universitetin Qazax filialının tələbələri, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Gəncə Regional Bölməsinin abidə mühafizəçiləri, tarix-diyarşünaslıq muzeylərinin, digər mədəniyyət müəssisələrinin əməkdaşları, rayonun ümumtəhsil müəssisələrinin tarix müəllimləri iştirak edəcəklər. İştirakçılar çöl arxeoloji ekspedisiyasının təşkili və aparılmasının xüsusiyyətləri, müxtəlif tarixi və arxeoloji məlumatların toplanılması və təhlili sahəsində təcrübə qazanacaqlar.




# Mahnı qanadlarında

## Arif Məlikovun doğum günündə sevilən nəğmələri səslənəcək

Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında sentyabrın 13-də dünyaşöhrətli bəstəkar Arif Məlikovun sevilən mahnılarından ibarət konsert proqramı keçiriləcək.

Filarmoniyanın Kamera orkestri və Estrada ansamblının müşayiəti ilə keçiriləcək konsertdə bəstəkarın "Azərbaycan", "Güllərim", "Dənizdə ay çiməndə", "Gözlərimin dünyası", "Gəl bizim dağlara", "İnandım", "Şirin qızım", "Qonaq gəl bizə", "Dənizə baxıram", "Günəş ürəkli" və digər unudulmaz mahnıları ifa ediləcək.

Pianoçu Ülviyyə Kazımova Arif Məlikovun əsərlərindən "Ötən anlar" silsiləsini və 3 vals ifa edəcək.

Qeyd edək ki, sentyabrın 13-cü Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı Arif Məlikovun (1933–2019) anadan olmasının 91-ci ildönümüdür. "Məhəbbət əfsanəsi" baleti, "Dalğalar" operettası, "Füzuli", "Vətən", "Metamorfozlar" simfonik poemaları, 8 simfoniya kimi irihəcmli əsərlərin müəllifi olan, kino və tamaşalara musiqi yazan bəstəkar zəngin mahnı yaradıcılığı ilə də incəsənət tariximizə böyük töhfələr verib.

# "Arena di Verona"da azərbaycanlı vokalçı ilə üç axşam

İtaliyanın Verona şəhərində keçirilən ənənəvi "Arena di Verona" opera festivalında çıxış edən dünya ulduzları arasında Azərbaycanın Xalq artisti, Akademik Opera və Balet Teatrının direktoru Yusif Eyvazov da var.

Yusif Eyvazov festivala C.Puççininin "Toska" operasında əsas kişi partiyasını – Mario Kavaradossi partiyasını ifa etmək üçün dəvət olunub.

Azərbaycan vokalçısının iştirak etdiyi iki tamaşa geridə qalıb. Y.Eyvazov 2 və 9 avqust tarixlərindəki uğurlu çıxışından sonra ayın 16-da növbəti dəfə Kavaradossi kimi səhnəyə çıxacaq.

Onu da qeyd edək ki, 15 min yerlik nəhəng amfiteatrda göstərilən tamaşalar məxsusi olaraq bu səhnənin parametrləri (eni 100, uzunluğu 140 metr) nəzərə alınaraq hazırlanır.

Uqo de Ananın quruluş verdiyi, dirijor Deniel Orenin musiqi rəhbəri olduğu "Toska"da Anna Netrebko, Luka Salsi, Qabriele Saqona kimi dünya opera ulduzları Yusif Eyvazovla tərəf-müqabil olublar.

**Gülcahan**




# Ömrünün 50 ili kukla sənətində keçmişdi...

Avqustun 13-də Əməkdar artist Mansur Mansurovun anadan olmasının 80-ci ildönümü tamam oldu. O, ömrünün 50 ilini Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrına həsr etmişdi...



Mansur Əbdül oğlu Mansurov 1944-cü il avqustun 13-də Bakıda anadan olub. Bakı Kitabxanaçılıq Texnikumunda təhsil alıb. Bayıl və Tibb işçiləri mədəniyyət evlərinin xalq teatrında aktyor-rejissor kimi çalışıb.

1970-ci ildən ömrünün sonuna qədər Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında çalışıb. Teatrın səhnə ustası olub. Repertuarın əsasını təşkil edən tamaşalarda iştirak edib. "Tıq-tıq xanım" tamaşasında Siçan bəy, "Dədə Qorqud" tamaşasında Ağsaqqal, "Səfərin nağılı"nda Rəmmal, "Ələddinin sehrli çırağı"nda Cin, "Bu ev kimin evidir?" tamaşasında Kirpi, "Meşə nağılı"ında Dələ, "Üç gombul"da Tibul, "Keçinin qisası" tamaşasında Qurd, "O olmasın, bu olsun"da Məşədi İbad, "Sehrli güzgü"də Zalım, "Məlikməmməd"də Məlikməmməd, "Şahzadə Turandot" tamaşasında Briqela kimi onlarla rolu qeyd etmək olar.

O, həmçinin Azərbaycan Dövlət Kukla Teatrının heyətində Hindistan, İran, Rusiya və digər ölkələrdə qastrollarda, beynəlxalq festivallarda iştirak edib.

Mansur Mansurov 2020-ci il aprelin 22-də vəfat edib.

# Yaradıcı insan gərək hər mövzuya kamil yanaşmağı bacarsın

## Eldəniz Babayev: "İstanbuldakı "Zəfər müjdəsi" sərgimə göstərilən diqqət və maraq məni çox qürurlandırdı"



İyun ayının son günlərində İstanbulda istedadlı azərbaycanlı rəssam, qalereyaçı Eldəniz Babayevin "Zəfər müjdəsi" adlı sərgisi açıldı. İlk dəfə 2023-cü ildə Bakıda nümayiş etdirilən sərgi Azərbaycan Xalq Cümhuriyyətinin 105, Türkiyə Cümhuriyyətinin 100 və Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuşdu. İstanbuldakı Atatürk Mədəniyyət Mərkəzinin qalereyasında açılan sərgidə rəssamın həyat və yaradıcılığını, fəaliyyətini əks etdirən kitab-kataloqun (müəllif Mirzə Talıbov) da təqdimatı olub.

Eldəniz Babayev Bakıya qayıtdıqdan sonra təəssüratını bizimlə bölüşdü.

*– Sərgi haqqında bizlərə hansı əsas məqamları danışmaq istərdiniz?*

– Sərgi ilə bağlı elə çox xoş duyğularım var... Sərgiyə göstərilən maraq, məsələn, orada səslənən "Türkiyə və Azərbaycan istiqlalını bir araya gətirmisiniz" sözləri məni çox qürurlandırdı. Bu bizim bir xalq olduğumuzun, babalarımızın eyni kökdən olmasının ifadəsi idi. Onu da deyim ki, sərgidə "Bir millət – iki dövlət" tarixi kəlamı ilə Azərbaycan-Türkiyə qardaşlığını əbədiləşdirən Ulu öndər Heydər Əliyev haqqında, onun Azərbaycan mədəniyyətinə diqqətini, həmçinin Türk dünyasının dövlət xadimləri ilə əlaqələrini və dostluğunu nümayiş etdirən videotəqdimat da oldu.

Atatürk Mədəniyyət Mərkəzi elə bir yerdir ki, orada sərginin keçirilməsi böyük əmək, məsuliyyət tələb etməklə yanaşı, həm də əhəmiyyətlidir. Odur ki, belə bir layihənin ərsəyə gəlməsində zəhməti, dəstəyi keçən hər kəsə minnətdaram. Sərginin təşkilində Azərbaycanda Atatürk Mərkəzinin, şəxsən onun rəhbəri akademik Nizami Cəfərovun böyük rolu oldu. Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağcı Azərbaycandakı sərgidə olduqdan sonra belə bir fikir irəli sürdü ki, mütləq şəkildə Türkiyə ictimaiyyəti də bu sərgini görməli, tanış olmalıdır. Sərginin təşkilində səfirliyin mədəniyyət müşaviri Mühiddin Məcid yaxından iştirak etdi. Türkiyə Yazma Əsərlər İdarəsinin rəhbəri Hüseyn Kutan və Fərrux Pilavcı da bu sərgiyə tərəfdaş oldular. Eyni zamanda İstanbul Atatürk Mərkəzinin sənət direktoru Rəmzi Buxarılı və Aykut Kələşi qeyd etməliyəm. Bütün bu insanlarla bir araya gəlib əsərlərə baxış keçirdikdən sonra Azərbaycanın İstanbuldakı Baş konsulluğu, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY, Türkiyədəki səfirliyimizin nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi, Azərbaycan Atatürk Mərkəzi, Azərbaycan Beynəlxalq Əlaqələr Mərkəzi, "Azərbaycan Hava Yolları" QSC, Azərbaycan Rəssamlar İttifaqı, "Bakı" Rəsm Qalereyası və "Yeni Gallery"nin birgə təşkilatçılığı ilə bu sərgi baş tutdu. Xarici İşlər Nazirliyi köməyini əsirgəmədi. Nazir Ceyhun Bayramov müraciətimizdən sonra səfirliyə və baş konsulluğa bununla bağlı göstəriş verdi. Təbii ki, Mədəniyyət Nazirliyinin sərginin ərsəyə gəlməsində böyük dəstəyi oldu. Ankarada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi – direktor Samir Abbasov və kollektiv yaxından iştirak etdilər. Nazirliyin TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı da öz yardımını əsirgəmədi.

*– TÜRKSOY-un medalı ilə də təltif olundunuz...*

– Bəli, təşkilatın baş katibi Sultan Raev tərəfindən TÜRKSOY-un 30 illik yubiley medalı ilə təltif edildim. Türk dünyası mədəniyyətinə verdiyim töhfələrə görə bu təltifə layiq görüldüyüm üçün təşkilata təşəkkürümü bildirirəm. Bu həm də Azərbaycan sənətkarlarına verilən bir dəyərdir.

*– Sərginin kataloqu da nəfis şəkildə nəşr olunub...*

– "Zəfər müjdəsi" kataloqu türk və ingilis dillərində nəşr olundu. Ulu öndər Heydər Əliyev və Atatürkün kəlamları ilə başlayır. Ön sözü Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy yazıb. Həmçinin TÜRKSOY-un baş katibi Sultan Raev, Türkiyə Böyük Millət Məclisi Milli təhsil, mədəniyyət, gənclik və idman komissiyasının rəhbəri Mahmut Özer, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri akademik Nizami Cəfərov, Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Samir Abbasovun sərgi ilə bağlı fikirləri yer alıb. Çox şadam ki, belə sanballı bir kataloq nəşr olundu. TÜRKSOY baş katibinin müavini Sait Yusuf və digər çıxış edənlər "Bir millət – iki dövlət" anlamını əsərlərimdə bir araya gətirdiyimə görə minnətdarlıq ifadə etdilər. Türkiyə Yazma Əsərlər İdarəsi məni Türkiyə-Azərbaycan dostluğunu əks etdirən sərgiyə görə xüsusi təşəkkürnamə və sertifikatla mükafatlandırdı. Bu, əl işi ilə məşğul olan sənətkarları bir araya toplayan dövlət qurumudur. Media ilə bağlı işdə və sərginin təşkilində bizə yaxından yardımçı oldular.

*– Belə sərgilər rəssam üçün hansı yeniliklər açır?*

– Bilirsiniz ki, mən 30 ildir təsviri sənətlə məşğulam. Amma yaradıcı insan məhz beynəlxalq miqyasda bir iş görəndə Azərbaycan rəssamlığının nə dərəcədə yüksək səviyyədə olduğunu hiss edir. Bir faktı qeyd etmək istəyirəm ki, Ankaradan bir qrup dövlət sənətçisi gəlib sərgini ziyarət etdi. Dedilər ki, biz bu əsərlərdə sovet rəssamlığının izləri ilə bərabər həm də müasir bir baxış gördük. Portretləri ayrı-ayrılıqda təhlil edərək yüksək dəyərləndirdilər.

*– Kazım Qarabəkir paşanın qızı Timsal xanımın da sərgini ziyarət etdiyini bilirik...*



– Timsal xanım özü bir canlı tarixdir. O, xatirələrini dilə gətirdi. Atasının Naxçıvanla bağlı olan xatirələrindən, Azərbaycanın dövlət və elm adamları ilə münasibətlərindən danışdı. Dedi ki, bugünkü sərgidə atamın portretini Ənvər və Nuru paşaların, Səməd bəy Mehmandarovun, Heydər Əliyev və Atatürkün portreti ilə yanaşı görməyim məni xoşbəxt etdi.

*– Sərgi həm də Türk dünyasının sərkərdələrinə həsr olunan silsilə ilə yadda qalıb...*

– Açılış zamanı Azərbaycan Televiziyası tərəfindən hazırlanan və Türk dünyası sərkərdələrindən bəhs edən klip də nümayiş olundu. Xalq artistimiz Azərin xanımın ifasında "Çırpınırdın, Qara dəniz" mahnısının sədaları altında təqdim olunan bu klip də maraqla qarşılandı. Bu nədən önəmli idi? Baş konsulluğumuzun dəvəti ilə sərginin açılışında İstanbulda fəaliyyət göstərən bir çox ölkələrin diplomatları da iştirak edirdi. Bu təkcə sərgi deyil, Azərbaycan və Türkiyənin qardaş kimi uğurlarının nümayişi kimi əhəmiyyət kəsb edirdi. Millət vəkili Şamil Ayrım da çıxışında TBMM adından təbrik söyləyəndə bu incəlikləri xüsusilə qeyd etdi. Azərbaycanın İstanbuldakı baş konsulu Nərmin Mustafayeva isə həm mükəmməl çıxışı, həm də yaradıcılığım haqqında fikirləri ilə hamımızı heyran etdi. Düşünürəm ki, bu sərgi unudulmaz bir xatirəyə çevriləcək. Sərgiyə sadə insanların, tələbələrin, turistlərin axını da məni çox sevindirirdi. Onların ölkəmizi tanımaları qürurverici idi.

*– Azərbaycandan sizinlə bərabər kimlər vardı?*

– Xalq rəssamı Arif Hüseynov Azərbaycan Rəssamlar İttifaqı adından çıxış edərək çox gözəl fikirlər söylədi. Dedi ki, Eldəniz bu sərgidə həm təşkilatçılıq, həm də sənət baxımından mühüm missiyasını yerinə yetirmiş oldu. Bu fikirləri Arif müəllimdən eşitmək çox xoş idi. Azərbaycanda Atatürk Mərkəzinin sədr müavini Osman Musayev də çıxış etdi. Atatürk Mərkəzinin adından "Türk dünyası sənətçisi" mükafatını mənə təqdim etdi.

> Qalereyaların vergi, kommunal xərcləri var. Türkiyənin bir sıra bölgələrində sənətkarlara vergisiz yer ayrılır, onlar əsərlərini nümayiş etdirir və satırlar. Bu işlər bizdə də tənzimlənməlidir. Mən demirəm, tam ödənişsiz olsun. Amma müəyyən güzəştlərlə bağlı qanunlar qəbul edilməlidir.

*– Gələcəkdə hansı planlar var?*

– Qarşıda bizi yeni layihələr gözləyir. Azərbaycanın siyasi və mədəni həyatında unudulmaz iz qoymuş Qənirə Paşayevanın yubileyinə həsr olunan sərgiyə hazırlaşırıq. Arif Hüseynov başda olmaqla yeddi rəssam bu sərgiyə hazırlaşır. Sərgi sentyabrın 25-nə planlaşdırılır.




TÜRKSOY və digər qurumlar tərəfindən əməkdaşlıq üçün təkliflər və fikirlər var. Bununla bağlı müəyyən layihələr ola bilər. Azərbaycan mədəniyyəti hər zaman dövlət başçımız İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqətindədir. Bizim rəssamlar da bu diqqətə layiq olaraq əsərlər yaratmağa, onları dünya qalereyalarına çıxarmağa qadirdirlər.

*– Türk aydınlarının portretlərinin alınması ilə bağlı Türkiyədən sizə təklif oldumu?*

– Bu çox maraqlı bir mövzudur. Amma bu sərgi kommersiya məqsədi güdmürdü. Əlbəttə, yaxşı olardı ki, bu qrafik əsərlər Azərbaycanda və yaxud Türkiyədə muzeylərin birində külliyyat şəklində sərgilənsin. Türk dünyası ilə bağlı, yaxud hər hansı beynəlxalq tədbirlərə ev sahibliyi etdiyimiz zaman bu əsərləri sərgiləmək, məncə, pis olmazdı. Onu da deyim ki, gələcəkdə bütün Türk dünyasının aydınlarını bir araya gətirən bir layihə düşünürük. Yenə də müəyyən bir ideya olmalıdır və buna da vaxt və şərait, eyni zamanda rəssamlara sifariş də olmalıdır.

*– Əsərlərinizdə maraqlı mövzular yer alır. Bunlar haradan qaynaqlanır?*

– Mən Türkiyəyə bağlı insanam. Tələbəlik illərimdən sonra bir müddət Türkiyədə turizm şirkətində çalışmışam. Ege-İzmir bölgəsində hotellərin bədii tərtibatı ilə məşğul idim. Türkiyəyə bağlılığım buradan yaranıb. Türkiyədə olan ziyalılar və siyasətçilərlə dostluq tellərim var. Onlar da məni yeni layihələrə səsləyirlər. Qrafik əsərlərim arasında "Trabzonlu qoca", "İstanbullu neyzən", "Bursalı dərviş" kimi əsərlər də var. Burada ölkənin regionu, tarixi və mənəvi cizgiləri yer alır.

*– Əsasən qrafika və yağlı boya ilə işləyirsiniz. Rəng dünyanız da fərqlidir...*

– Sənətkarın ovqatından çox şey asılıdır. Məsələn, mənim əsərlərimdə musiqi alətləri də yer alır. Sizə səmimi deyim ki, yaradıcı insan gərək hər mövzuya kamil yanaşmağı bacarsın. Hansı sahədə olursansa ol, az da olsa, bütün sahələrdən bilgin olmalıdır. Məncə, bütövlük olanda ərsəyə gələn məhsul da tam olur. Məsələn, Türkiyədə yaşayan azərbaycanlılar Xəlil Rza portretinə baxıb mənə dedilər ki, siz Xəlil Rza obrazını elə yaratmısız ki, tam özü kimi sanki bir qayadır. Obrazı açmaq lazımdır. Mən xoşbəxt adamam ki, Bakı Şəhər Mədəniyyət Baş İdarəsində çalışdığım zaman "Klassik türk sənətləri" adlı sərgi açmışdım və Xalq şairi Bəxtiyar Vabahzadə həmin sərgiyə gələrək gözəl fikirlər demişdi. Həmçinin böyük fırça ustamız Tahir Salahov da tarixi janrda işlərimi bəyənərək etnoqrafiyanı bildiyimə görə yüksək fikir söyləmişdi. Düşünürəm ki, İstanbul tamaşaçılarını da məhz bu xüsusiyyətlər cəlb etdi. Özümü portretçi rəssam hesab etmirəm. Amma Timsal xanımın Heydər Əliyevlə görüşünü xatırlayaraq "portretin gözləri mənim qəlbimə toxundu" deyərək kövrəlməsini bir sənətkar kimi işimə verilən ən yüksək dəyər kimi qəbul edirəm. Ulu öndərin obrazını yaratmaq məsuliyyət, Atatürkün iti baxışlarını yaratmaq bir o qədər dəqiqlik istəyir.

*– Sizinlə "Bakı" Rəsm Qalereyasında söhbətləşirik. Nədənsə qalereyaya axın azdır...*

– Təəssüf ki, pandemiyadan sonrakı dövrdə şəhərimizə gələn turistlərin səviyyəsində eniş müşahidə olunur. Əvvəllər alıcılıq qabiliyyəti də yüksək idi. İndi bu da yoxdur. Bəzən günlərlə qalereyaya gələn olmur. Bir məsələni də demək istərdim. Türkiyənin Kütahya bölgəsində valilik və bələdiyyə sənətkarlara vergisiz yer ayırıb, onlar əsərlərini nümayiş etdirir və satırlar. Düşünürəm ki, bu işlər bizdə də tənzimlənməlidir. Mən demirəm ki, tam ödənişsiz olsun. Amma müəyyən güzəştlərlə bağlı qanunlar qəbul edilməlidir.

*– Müsahibəyə görə təşəkkür edirik. Sizə yaradıcılıqda və qalereyaçı kimi fəaliyyətinizdə yeni uğurlar arzulayırıq.*

– Mən də diqqətinizə görə "Mədəniyyət" qəzetinə minnətdaram.

**Lalə Azəri**

№59-60 (2125)
16 avqust 2024
www.medeniyyet.az

“Vətən fədailəri”

# “Bir qarış torpağımızı da düşməndə qoymayacağıq”



Şəhidlər torpaqda əbədi bir iz qoyan qəhrəmanlardır. Onlar təkcə qanları ilə deyil, həm də ruhları ilə millətin qalxanıdır. Vətən uğrunda canını fəda edənlər yalnız millətin Qələbə bayrağını dalğalandırmadılar, həm də bizlərə Vətən sevgisinin nə olduğunu təkrar-təkrar xatırlatdılar.

“Vətən fədailəri” rubrikasında bu dəfə şəhid baş leytenant Kərəm Həsənovu xatırlayacağıq.

Kərəm Akif oğlu Həsənov 1996-cı il yanvarın 1-də Gəncədə anadan olub. Şəhərdəki Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbdə təhsil alıb. Məktəb illərində hərbi hazırlıq dərslərində xüsusi fəallıq göstərib, məktəbdaxili “Şahinlər” qrupuna üzv olaraq təlimlərə qoşulub. İdmana da xüsusi marağı vardı. Kikboksinq üzrə yarışlarda yüksək nəticələr qazanmışdı.

Dərslərini çalışqanlıqla oxuyur, dostları ilə səmimi münasibətlər qurardı. Lakin hər şeydən daha çox Kərəmin gözlərində Vətənə olan sevgini oxumaq mümkün idi. Vətənə bağlılığı onun üçün müqəddəs bir borc idi.

Kərəm 2013-cü ildə orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2017-ci ildə hərbi məktəbi tank bölmə, hissə və birləşmələrin döyüşə tətbiqi ixtisası üzrə başa vuraraq leytenant rütbəsi alır. Göndərildiyi hərbi hissələrdə vəzifəsini layiqincə yerinə yetirir. 2020-ci ildə baş leytenant rütbəsinə layiq görülür, həmçinin hərbi xidməti dövründə əldə etdiyi nailiyyətlərə görə komandanlıq tərəfindən fəxri fərmanlarla təltif olunur.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Kərəm Həsənov da ilk gündən iştirak edir, Suqovuşanın işğaldan azad olunmasında, Ağdam rayonu istiqamətində qəhrəmanlıq göstərir. Suqovuşan istiqamətində döyüşlərdə düşmən artilleriyasının atəşi nəticəsində tankı iki dəfə vurulur, özü isə qəlpə yarası alır. Lakin buna baxmayaraq yenidən döyüşlərə qatılır, bir çox postların düşməndən azad edilməsində iştirak edir.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə “Döyüşdə fərqlənməyə görə” və “Vətən müharibəsi iştirakçısı” medallarına layiq görülür.

Vətən müharibəsi Zəfərlə başa çatsa da, Qarabağın bir hissəsində hələ yağı düşmən qalmışdı. Azərbaycan Ordusu yurd yerimizi erməni terrorçularından tamamilə təmizləmək üçün 2023-cü ilin 19-20 sentyabr tarixlərində lokal xarakterli antiterror əməliyyatı həyata keçirir. Kərəm də bu əməliyyatda iştirak edir, Xocavənd rayonu istiqamətindəki döyüşlərdə sol qolundan güllə yarası alır. Yaralı vəziyyətdə də döyüşə davam edir. Son nəfəsinə kimi vuruşaraq qəhrəmancasına şəhid olur.

Doğulub, boya-başa çatdığı Gəncə şəhərindəki Şəhidlər xiyabanında torpağa tapşırılan Kərəm Həsənov ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni və “Vətən uğrunda” medalı ilə təltif edilir.

Kərəm Həsənov 2021-ci ilin martında Nərmin adlı xanımla ailə həyatı qurub.

Şəhidin həyat yoldaşı Kərəmlə bağlı xatirələrindən söz açır: “Kərəmlə biz bir-birimizi tanıdığımız ilk gündən qəlbən bağlandıq və qısa zaman müddətində ailə həyatı qurmağa qərar verdik. Rüqəyya adlı qızımız dünyaya gəldi.

Kərəm 44 günlük Vətən müharibəsindən sağ-salamat gəlmişdi. Amma bu payız əvvəlki payız kimi sədaqətli olmadı... Kərəm şəhidlik zirvəsinə gedən yola bəlkə də hələ kiçik yaşlarından hərbiyə olan marağı və sevgisi ilə qədəm qoymuşdu. Ən böyük nigarançılığı Azərbaycanın bir parçasının işğalda qalması idi. Kərəm kimi igidlər sayəsində torpaqlarımız düşməndən azad olundu. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Şəhidin anası Mənsurə Həsənova Kərəmin uşaqlıq illərindən çətinliklərlə böyüdüyünü, onun çox qürurlu bir uşaq olduğunu bildirir: “O, heç vaxt övlad olaraq bizləri incitməyib. Məktəbdə oxuduğu müddətdə dərslərinə məsuliyyətlə yanaşan şagird olub. Ona təhsil, elm öyrədən müəllimləri Kərəm haqqında hər zaman yüksək fikirlər söyləyiblər. Kərəm cəsur, qorxmaz, başladığı bir işi yarım qoymayan, Vətəninə bağlı idi. İnsan kimi vicdanlı, mərhəmətli, xeyirxah idi. Bunu onu tanıyan hər kəs, dostları, yoldaşları daha yaxşı bilir”.

Birinci Qarabağ müharibəsində iştirak etdiyini söyləyən şəhid atası Akif Həsənov da Kərəmin uşaqlıq illərindən vətənpərvər ruhda böyüdüyünü deyir: “Ən böyük arzusu Vətən uğrunda şəhid olmaq idi. O həmişə deyirdi ki, bir işə başladınsa, sonuna kimi getmək lazımdır. “Bir qarış torpağımızı da düşməndə qoymayacağıq, son damla qanıma kimi vuruşub şəhid olacağam. İndi Kərəm tək bizim deyil, Azərbaycanın qəhrəmanıdır”.

Bu gün Azərbaycan adının hər bir hərfində şəhidlərimizin qan yazısı var. Onların qanı Qarabağın, Xarıbülbülün məlhəmi oldu və Vətəni yenidən diriltdi...

**Nurəddin**

# Tanınmış bəstəkar Rəhilə Həsənova vəfat edib



Azərbaycan mədəniyyətinə itki üz verib. Tanınmış bəstəkar Rəhilə Həsənova avqustun 10-da, 73 yaşında, ABŞ-nin Baltimor şəhərində vəfat edib.

Rəhilə Teymur qızı Həsənova 1951-ci il noyabrın 10-da Bakıda anadan olub. Bəstəkarlıq üzrə Xəyyam Mirzəzadə, Qara Qarayev kimi görkəmli bəstəkarlardan dərs alıb. Akademik musiqiyə yeni mövzu və obrazlar gətirmiş bəstəkarın “Yurd”, “Qavaldaş”, “Xəzri-Gilavar”, “Yallıvarı”, simfonik orkestr üçün “Eos-Helios”, “Perfect Equilibrium” piano kvinteti, “Solar Winds” ağac nəfəs alətləri kvarteti, “Penetrations” kimi əsərləri musiqi ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanıb.

Pedaqoji və elmi fəaliyyətlə də məşğul olan bəstəkar bir sıra elmi məqalələrin, dərs vəsaitlərinin (o cümlədən “Solfecio” müəllif dərsliyi) müəllifidir. 2005-ci ildə “Musiqi nəzəriyyəsi fənlərarası tədqiqat obyekti kimi” mövzusunda dissertasiya müdafiə edərək sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini alıb.

Bəstəkarın əsərləri bir sıra ölkələrdə uğurla səsləndirilib, beynəlxalq festivalların proqramına daxil edilib. ABŞ, Böyük Britaniya, Almaniya və Polşada müəllif konsertləri gerçəkləşib. 2004-cü ildə Almaniyada “Derwisch” adlı kompakt-diski işıq üzü görüb. R.Həsənova İtaliyada “Donne in Musica” fondunun festivallarında (1998–2000) Azərbaycanı təmsil edib. 1993, 2003-cü illərdə Bakıda bəstəkarın “Merac gecəsi” adlı müəllif konsertləri keçirilib.

Rəhilə Həsənova ömrünün son illərində ölkəmizdən kənarda yaşasa da, Azərbaycan mədəniyyəti ilə sıx bağlı idi.

Allah rəhmət eləsin.

# Anadolunun “torpaq şairi” – Aşıq Veysəl

Türk dünyasında mədəni yaddaşın mühüm ifadə forması kimi aşıq sənətinin zəngin tarixi, onu əsrlərlə yaşadan böyük ustadları var. Ötən yüzillikdə Anadolu ellərinin görkəmli saz-söz yetirmələri arasında bənzərsiz yaradıcılığı ilə yaddaşlarda əbədiləşən aşıqlardan biri də Veysəl Şatıroğlu olub. Cahanı qəlb gözü ilə görən sənətkarı anadan olmasının 130-cu ildönümündə bir daha yad edək.



Veysəl Əhməd oğlu (Şatıroğlu) 1894-cü ildə Türkiyənin Sivas bölgəsinin Sivrialan kəndində dünyaya göz açıb. Körpə ikən anası Gülzarı itirən Veysəl 7 yaşında çiçək xəstəliyinə yoluxur. Bu xəstəlikdən sol gözü tutulur. Sonra sağ gözü də tədricən zəifləyir. Bir gün sağ gözünə ağacın budağı dəyir, aldığı zədədən dünya işığından ömürlük məhrum olur.

Veysəlin əkinçiliklə məşğul olan atası sazı-sözü sevən bir insan olub. Bundan çox təsirlənsə də, ruhdan düşmür. Elin söz və sənət bilicilərinin şeirlərini yeri gəldikcə oğluna əzbərlədir. Bu yolla onun könlünü almağa, ovundurmağa çalışır. Günlərin birində oğluna saz da alır. Saz Veysəlin sirdaşına çevrilir. Dərd-sərini onunla bölüşür və bütün varlığı ilə ona bağlanır. Bir müddət kəndlərinin söz-sənət sərraflarından olan aşıq Əliyə şəyird olur, sənətin sirlərini dərindən öyrənir.

1914-cü ildə Türkiyənin (Osmanlı) də iştirak etdiyi I Dünya müharibəsi başlanır. Gənclər cəbhəyə gedirlər. Gözləri görməyən Veysəl isə kənddə qalır. Bir müddət sonra məmləkətin üzərini qara buludlar alır. Xalq Mustafa Kamal Atatürkün öndərliyində Qurtuluş savaşına qalxır. Veysəl bu mücadilədən kənarda qalmağı özünə dərd edir. Sonralar o günləri belə xatırlayırdı: “Gözlərim görmədiyi üçün əsgəri borcumu yerinə yetirə bilmədim. Bu halımdan çox üzüldüm. Onlar məmləkətə xidmət etməyə getdilər, mən kənddə miskin və hər şeydən məhrum qaldım...”.

*Nə yazıq ki mənə olmadı qismət,*
*Düşməni dənizə tökərkən millət,*
*Fələk qırdı qolumu, vermədi fürsət,*
*Qılınc vurmaq üçün düşmən başına.*

Aşıq Veysəl 25 yaşında Əsma adlı xanımla ailə həyatı qurur, ancaq xoşbəxt ola bilmir. Həyat yoldaşının etinasızlığı üzündən bir neçə il sonra onlar ayrılırlar. Şeirlərinin birində aşıq bu ayrılığı belə ifadə edir:

*Məmləkətə dastan oldum,*
*Qarım məni bəyənmədi.*
*Yardan oldum, dostdan oldum,*
*Yarım məni bəyənmədi.*

Bir müddət sonra o, ikinci dəfə ailə qurur, iki oğlu, bir qızı dünyaya gəlir.

1933-cü ildə şeirə, sənətə dərindən bələd olan ziyalı Əhməd Kutsi Tecerlə tanışlığı Veysəlin həyatında müəyyən dəyişiklik yaradır. Mətbuatda ilk şeiri dərc olunur. Professor Maarifə Hacıyeva “Dünyanı bəsirət gözü ilə görən aşıq Veysəl” adlı araşdırmasında yazır ki, gənc yaşlarında aşıqların şeirlərini əzbər söyləyən Veysəl Türkiyə Cümhuriyyətinin 10 illiyi münasibətilə “Atatürkdür Türkiyənin əhyası” adlı şeirini yazır. Şair Sivrialandan Ankaraya camaatla birlikdə piyada gedir. Ankarada şeiri xalq qarşısında oxuyur və alqışlarla qarşılanır. Bundan sonra onun yaradıcılığı diqqət çəkməyə başlayır.

... Aşıq Veysəl təbiət və cəmiyyətdə olan gerçəkləri qəlbinin gözü ilə görə bilib. Bu belə olmasaydı, onun yaradıcılığı bu qədər rəngarəng və zəngin olmazdı:

*Dürlü-dürlü rənglərə boyanmış,*
*Yaşıl yarpağıyla döşəli dağlar.*
*Geyinmiş, qurşanmış gəlin misallı,*
*Gülümsər üzünə nəşəli dağlar.*

Müəllif “Meşə”, “Ağaclar”, “Adalar”, “Dağlar”, “Yaz səhəri”, “İnləyər”, “Oyanış”, “Bəsərək dağı”, “Qara torpaq” kimi şeirlərində təbiət və onun könül oxşayan gözəlliklərini böyük bir şair coşqunluğu ilə vəsf edib.

“Deyişlər” adlı ilk kitabı 1944-cü ildə nəşr edilir. Sonra “Sazımdan səslər” (1950), “Dostlar məni xatırlasın” (1971) kitabları işıq üzü görür. 1965-ci ildə aşıq “Ana dilinə və milli birliyə etdiyi xidmətlərinə görə” xüsusi təqaüdə layiq görülür.

Aşıq Veysəl “Qara torpaq” adlı şeirinə görə Türkiyə ədəbiyyatında həm də “torpaq şairi” kimi şöhrət tapıb. Professor Kamal Fikrət Arık 1965-ci ildə Londonda xəstəxanada ikən bu şeiri oxuyur və çox təsirlənir. Aşıq Veysələ belə bir məktub yazır: “...Sən bu yalnız, qaranlıq xəstəxana odalarında məni səsinlə, deyişlərinlə ümidləndirirsən. Səndə yurdumun havasını, yelini, ümidini, gücünü tapıram. Çıl-çılpaq, boz dağlar, boş odalar, kasıb kəndlərinin iç zənginliyini, əxlaq üstünlüyünü, bütün çarəsizliklərlə savaşaraq yaşama əzmini, sən bütün bunları “Qara torpaq”da nə ustalıqla, nə üzdən anlatdın”.

Aşıq Veysələ görə, həyatımızı öz barı-bəhrəsi ilə təmin edən torpaq ən sadiq dost, ən vəfalı gözəl və insanlara haqdan verilən gizli xəzinədir. İnsanların bütün ehtiyaclarını ödəyən, ona gözəl maddi nemətləri yetirən, yeri gələndə qüsurlarını gizlədən və sədaqətlə bağrına basan da qara torpaqdır:

*Bütün qüsurumu torpaq gizləyir,*
*Məlhəm qılıb yaralarım düzləyir,*
*Qolun açmış yollarımı gözləyir,*
*Mənim sadiq yarım qara torpaqdı.*

Araşdırmalarda qeyd edilir ki, aşıq gözlərində cərrahi əməliyyat aparmaq istəyən həkimlərə etiraz edir və deyir: “Mən qəlbimin evində bütün qurğu-büsatı yerli-yerində olan möhtəşəm bir dünya yaratmışam. Gözümü açsanız, qorxuram, o gözəl dünyadan əsər-əlamət qalmasın. İstəmirəm, məni öz dünyamla baş-başa buraxın”.

Həmin düşüncəsini aşağıdakı şeirində belə ifadə edib:

*Bir kiçik dünyam var içimdə mənim,*
*Möhnətim, zinətim mənə kafidir.*
*Baxanlar dar görür, genişdir mənə,*
*Söhbətim, ülfətim mənə kafidir.*

Aşıq poeziyasını hikmət çələngi ilə bəzəyən Veysəl Şatıroğlu 21 mart 1973-cü ildə vəfat edir. Cismi torpağa, şeir və xatirələri isə yaddaşlara köçür.

Onu da qeyd edək ki, TÜRKSOY 2019-cu ildə anadan olmasının 125-ci ildönümü münasibətilə “Aşıq Veysəl ili” elan edib. 2023-cü ildə isə Aşıq Veysəlin ölümünün 50-ci ildönümü UNESCO-nun yubileylər proqramı çərçivəsində qeyd olunub. Hər iki ildönümü ilə bağlı Azərbaycanda da tədbirlər keçirilib.

**S. Fərəcov**

# Ulu sənətin böyük sənətkarı

Keçəçioğlu Məhəmməd – 160

Muğam sənəti tariximizdə özünəməxsus yeri olan klassik ifaçılardan biri də Keçəçioğlu Məhəmməddir. Qarabağ muğam məktəbinə mənsub böyük sənətkarlar sırasında yer tutan xanəndə coşqun ifaçılıq fəaliyyəti dövründə ulu sənətin təkrarsız ənənələrini layiqincə yaşadıb, Azərbaycanın musiqi mədəniyyəti xəzinəsinə dəyərli töhfələr bəxş edib.



Bu il görkəmli sənətkarın anadan olmasının 160 illiyidir.

“Keçəçioğlu” adı ilə tanınan Məhəmməd Məşədi Xəlil oğlu 1864-cü ildə Şuşa şəhərində dünyaya göz açıb. Məşədi Xəlil tanınmış keçə ustası olub. Gənc Məhəmməd musiqiyə olan böyük həvəsi ilə yanaşı, atasından keçəçilik sənətini də öyrənir. Xalq arasında Keçəçioğlu Məhəmməd kimi tanınır.

Deyilənə görə, günlərin bir günü görkəmli musiqi xadimi Xarrat Qulu səhər evdən fikirli çıxır. Yolu təsadüfən həmin keçəçi dükanının qarşısından düşür. Həzin bir zümzümə onu fikrindən ayırır. Başını yuxarı qaldırıb ətrafa göz gəzdirir. Qarşı tərəfdə ortaboylu, qırmızıyanaq bir gəncin keçə təmizləyə-təmizləyə oxuduğunu görür. O, dost və tanışlardan soraqlayıb bu gəncin kim olduğunu öyrənir. Aradan xeyli vaxt keçəndən sonra bir gün onu yanına çağırır. Danışdırıb halxasiyyətinə bələd olur və onu öz məktəbinə qəbul edir.

Məhəmməd bu məktəbdə Xarrat Quludan, görkəmli xanəndə Məşədi İsidən ifaçılığın sirlərini öyrənir, məclislərdə çıxış edir, musiqisevərlərin rəğbətini qazanır.

Görkəmli xanəndə Seyid Şuşinski Keçəçioğlu Məhəmmədi belə xatırlayarmış: “Onu görməyib səsini uzaqdan dinləyənlər elə hesab edərdilər ki, oxuyan Məşədi İsidir. Çünki o, oxuduğu muğamlarda Məşədi İsinin vurduğu xalları və guşələri çox ustalıqla təqlid edirdi”.

O, öyrənib bəhrələndiyi müəllimlərinin yolu ilə gedir. Şəhərin musiqi məclislərində və el şənliklərində fəallıq göstərir. Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi altında Şuşada təşkil edilən tamaşalarda və musiqili səhnəciklərdə də çıxış edirdi.

1902-ci ildə Bakıya gələn Məhəmməd ilk dəfə çıxış etdiyi konsertdə “Şüştər” muğamını böyük ustalıqla oxuyur. “Kaspi“ qəzeti bu barədə məqalə və bir neçə rəy dərc edir. Həmin rəylərin birində yazılmışdı: “Xanəndə Məhəmməd “Şüştər“ muğamını ürəkdən, incə bir səslə-avazla elə gözəl oxudu ki, dinləyiciləri məftun etdi...”.

Həmin konsertdə Məhəmməd Füzulinin “Leyli və Məcnun“ poemasından duet şəklində bir parça Cabbar Qaryağdıoğlu ilə Keçəçioğlu Məhəmmədin ifasında təqdim olunur. Bu çıxış tamaşaçılar arasında böyük marağa səbəb olur. Onu da deyək ki, dövrün belə konsert-tamaşaları milli opera sənətimizin yaranmasına da zəmin idi.

Bakının mədəni həyatı sənətkarı möhkəm tellərlə özünə bağlayır. Buna görə də o, 1904-cü ilin əvvəlində həmişəlik Bakıya köçür. Şəhərin tanınmış tarzənlərindən Məşədi Zeynal, Mərdi Canıbəyov və sonralar Qurban Pirimovla əməkdaşlıq edir, öz üzərində yorulmadan çalışır. Məhz bu zəhmətin sayəsində dinləyiciləri valeh etməyi bacarır.

Görkəmli musiqişünas, Əməkdar incəsənət xadimi Firudin Şuşinski araşdırmasında yazır ki, Keçəçioğlu Məhəmməd ifa etdiyi qəzəllərə xüsusi diqqət yetirər, hər nümunəni oxumazmış. Məclisdə dinləyicilərin əhval-ruhiyyəsinə uyğun gedişlər edər, onları gah şənləndirər, gah da kədərləndirərmiş.

Əməkdar artist Cəlilbəy Bağdadbəyov xatirələr kitabında yazır: “1905-ci il idi. Bakı toylarının birinə dəvət olunmuşdum. Məclis geniş bir həyətdə qurulmuşdu. Xanəndə Keçəçioğlu Məhəmməd “Üzzal” oxuyurdu. Yanımda silahlı bir nəfər oturmuşdu. Hiss etdim ki, o, Bakı qoçularından biridir. Xanəndənin çox ustalıqla oxuması hamını heyran etmişdi. Təkcə yanımda oturan qoçu narahat idi. O, nədənsə hirslənir və tapançanı əlində oynadırdı. Xanəndə bu vəziyyəti görüb İran şairi Sədinin: “Biz başqasını sənin yerinə özümüzə məhrəm görmədik, Sən də Allah xatirinə keçmiş əhd-peymanı unutma” misralarını farsca oxudu. Mən qonşumun hərəkətlərindən narahat olaraq üzümü ona tərəf çevirdikdə o, bu vəziyyətdən istifadə edib dedi: – Keçəçioğlu nə oxuyur? – Mən dedim ki, xanəndə “Üzzal” oxuyur və qəzəlin bu iki misrasını ona tərcümə etdim. Qoçu bığlarını eşib dedi: – Eh, heç nə bilmirəm. Bircə onu bilirəm ki, Keçəçioğlunun oxumağı çox xoşuma gəldi...”.

Ötən əsrin əvvəllərində Qafqazda xanəndə kimi tanınan Keçəçioğlu Məhəmməd “Sport-Rekord” firmasının dəvəti ilə Varşavaya gedir. Yolüstü bir neçə gün Moskvada qalır. “Metropol” mehmanxanasının zalında Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev və Davud Səfiyarov ilə “Şərq konserti” verir. Keçəçioğlu Məhəmməd Varşavada tarzən Qurban Pirimov və kamançaçı Saşa Oqanezaşvilinin müşayiəti ilə “Heyratı”, “Rahab”, “Kürdü-Şahnaz”, “Qarabağ şikəstəsi” və s. muğamları, “Gülə-gülə”, “Xuraman”, “Axşam oldu” təsnif və mahnılarını vala yazdırır. Xanəndə 1914-cü ildə “Ekstrafon” firması tərəfindən Kiyevə dəvət edilir. Burada da bir çox muğam və el mahnılarını qrammofon valına yazdırır.

Sovetləşmədən sonra, 1921-ci ildə xanəndə “təşviqat qatarı” ilə respublikanın bir sıra rayonlarında olur, zəhmətkeşlər qarşısında maraqlı repertuarla çıxışlar edir. 1926-cı ildə dahi musiqiçi Üzeyir Hacıbəylinin təşəbbüsü ilə Keçəçioğlu Məhəmməd Azərbaycan Dövlət Konservatoriyasına dəvət edilir. O burada Cabbar Qaryağdıoğlu və Seyid Şuşinski ilə birlikdə gənc xanəndələr yetişdirmək sahəsində birgə fəaliyyət göstərir.

Musiqisevərlərin qəlbində əbədi heykəlləşən Keçəçioğlu Məhəmməd ömrünü Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğinə həsr edib. Heç bir zaman sevdiyi sənətindən uzaq düşməyib. Görkəmli sənətkar 1940-cı ildə, 76 yaşında vəfat edib.

**Savalan**

# Ulduzu sönməyən mesenatın yükü

## Millət atasının ekran və səhnə obrazları




Hələ sağ ikən şəxsiyyəti mifləşəcək dərəcədə məşhurlaşan, xeyirxah əməlləri ilə xalqın qeyri-formal liderinə çevrilən insanlar olur ki, onların varlığı uca Tanrının lütfüdür. Şəksiz ki, Azərbaycanın tarixindəki belə insanlardan biri bütün şüurlu həyatını öz millətinin rifahına həsr etmiş, qazandığını elm, təhsil, mədəniyyət yolunda səxavətlə xərcləmiş Hacı Zeynalabdin Tağıyevdir.

Bu gün bizim niyyətimiz əməlləri ilə xalqının sevimlisi olmuş, XIX əsrin sonları, XX əsrin əvvəllərində Millət atası isminə layiq görülmüş Tağıyevin həyatı, fəaliyyəti barədə danışmaq deyil. Görkəmli şəxsiyyətin səhnə və kino obrazlarından söz açmaq istəyirik.



Tağıyev elə bir dövrdə və qövmdə yaşamışdı ki, o zaman gerçək qəhrəmanların obrazını səhnəyə gətirmək dəb deyildi, kino sənəti isə hələ yeni təşəkkül tapırdı. O zaman dəbdə olan rəssama portret çəkdirmək idi ki, Hacı Zeynalabdinin portreti ilə bağlı əhvalat da çoxlarına bəllidir.

İş elə gətirdi ki, Hacı Zeynalabdinin ədəbi obrazları onun yaşayıb çalışdığı dövran dəyişdikdən sonra yaranmağa başladı. Təbii ki, ötən dövrün qayda-qanunları kimi, ədəbi-bədii əsərlərə verilən dəyərlər də sovetlər ölkəsinə yaramırdı. Əsilzadələr, zəngin iş adamları müsbət qəhrəman nədir, hətta realist obraz kimi proletar könlünü oxşaya bilməzdi. Bu xüsusda faktları çözələyəndə düşünürsən ki, nə yaxşı Tağıyevin obrazı 1920-50-ci illərdə ekrana, səhnəyə çıxarılmayıb, yoxsa ki, hələ bu gün də həmin təhrifləri aradan qaldırmaqla məşğul idik.

***

Hacı Zeynalabdin Tağıyevin kinomuzda ilk mükəmməl və sovet dövrü üçün ən obyektiv obrazına "Ulduzlar sönmür" (1971) filmində rast gəlirik. Tarixi-bioqrafik janrda çəkilmiş film görkəmli siyasi xadim Nəriman Nərimanova həsr olunub. Quruluşçu rejissoru və ssenari müəlliflərindən biri Əjdər İbrahimov, digər ssenari müəllifi İsa Hüseynov olan bu filmdə sovet ideologiyasına qarşı yumşaq etiraz süjet boyunca hiss olunur. Hacı Zeynalabdin Tağıyev rolunda görkəmli aktyor İsmayıl Osmanlı çəkilib. Onun ifasında Hacı ideyaca fərqli mövqedə olan doktor Nərimana bəslədiyi duyğularını qoruyub saxlayan, onun xalqını düşündüyünə inanan ağsaqqaldır.

Film "Azərbaycanfilm"in istehsalı olsa da, rus dilində lentə alınıb. Hacı Zeynalabdin Tağıyevi məhz İsmayıl Osmanlı səsləndirir. Əgər bu, film yaradıcıları tərəfindən obrazın milli koloritini artırmaq üçün nəzərdə tutulmuşdusa, digər tərəfdən də, milli neftxudanın öz dövrü üçün hərtərəfli savadlı olduğu təəssüratı yaradır. Bununla belə, filmdə əsas qəhrəman olmasa belə, Tağıyev milyonçu, iş adamı və duz-çörəyi tapdamayan kişi kimi təqdim olunur. Onun xarakterinin digər cəhətlərini geniş ekrandan və böyük səhnədən seyr etməyə hələ neçə illər var idi.

***

Yazıçı Anarın öz ssenarisi əsasında çəkdiyi "Üzeyir ömrü" ("Uzun ömrün akkordları") filmi 1981-ci ildə istehsal olunub. Mərkəzi Televiziyanın sifarişi ilə lentə alınmış ikiseriyalı filmdə böyük bəstəkarımız Üzeyir bəy Hacıbəylinin gənclik illəri, milli opera sənətimizin təşəkkül dövrü geniş təsvir olunub. Gerçək tarixi faktlara əsaslanan filmdə ilk azərbaycanlı qadın opera müğənnisi, 1910-cu illərdə Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə İtaliyada təhsil alan Şövkət Məmmədova ilə bağlı bir epizod var. Əslində, bu fakt bütün sənətsevərlərə, o cümlədən də bizim oxuculara bəllidir deyə, qısaca bunu deyirik: gənc Şövkət tamaşadan sonra üzüaçıq səhnəyə çıxıb oxuyur ki, tamaşa onun benefisinə oynanılmış hesab edilsin və kassadakı bütün məbləğ təhsilini davam etdirmək üçün ona verilsin.



Gənc Şövkət (aktrisa Mayya İsgəndərova) səhnədə çıxış edərkən təxminən bir dəqiqə ərzində teatrın lojası göstərilir. Türk (Osmanlı) konsulu ölkəsinin İtaliya ilə müharibə şəraitində olduğu zaman bir türk qızının səhnədə italyanca oxumasını Hacıya irad tutur və qalxıb teatrı tərk edir. Aktyor Hüseynağa Sadıqovun oynadığı Hacı Zeynalabdin isə, sadəcə, başını döndərməklə konsulu yola salaraq, üzündə "bunun mənə və sənətə nə dəxli?" ifadəsi ilə seyrə davam edir. Vəssalam.

***

Görünür ki, milyonçularımız barədə gerçəkləri səhnədən, ekrandan göstərmək üçün Azərbaycanın müstəqillik qazanması lazımmış. Çox ağır şərtlər, maddi çətinlik və siyasi qeyri-sabitlik dövründə Rövşən Almuradlı Şahmar Ələkbərovun ssenarisi əsasında "Yük" bədii filmini çəkdi. 1995-ci ildə, müstəqilliyimizin ilk illərində sovetləşmədən öncəki dövrə aid realist filmin ekrana çıxması yaxşı mənada insanları çaşdırdı. İki milyonçunun – Ağa Musa Nağıyevlə  Hacı Zeynalabdin Tağıyevin filmdəki obrazları bu iki böyük insanın artıq illərdən bəri əfsanə kimi dillərdə dolaşan əhvalatlarına işıq saldı. Hacı Zeynalabdin Tağıyev roluna tanınmış teatr rejissoru, Xalq artisti Ağakişi Kazımov çəkilmişdi. Məsələ ondadır ki, A.Kazımovun ilk sənət təhsili aktyorluq olub və o, Sankt-Peterburqda rejissorluq fakültəsinə daxil olanadək, indiki Milli Dram Teatrında aktyor kimi çalışıb. Filmlə, Tağıyev obrazı ilə bağlı mərhumun həyat yoldaşı, Əməkdar artist Mehriban Abdullayevanın xatirələrindən:

– Ağakişi müəllim mənə deyirdi ki, həmişə kinoya çəkilməyi arzulayıb, amma kamera önündə dayanmaqdan qaçıb. Üzündə uşaqlıqdan qalma çapıq yeri var idi deyə fikirləşirmiş ki, ekranda pis görünər. Lakin bir gün rejissor Vaqif Əsədov ona deyir ki, kinostudiyaya gəl. Kinostudiyada Ağakişiyə heç nə demədən onun üzünə bığ, saqqal yapışdırıb qrim edəndən sonra deyirlər ki, elə budur, başqası lazım deyil. Ağakişiyə bildirirlər ki, səni Hacı Zeynalabdin Tağıyevin roluna çəkirik, heç bir sınaq çəkilişinə ehtiyac yoxdur. Çəkiliş zamanı, təbii görünsün deyə Ağakişi özü bığ-saqqal saxlamışdı. Hər dəfə bu filmdən söz düşəndə fəxrlə deyirdi ki, ömründə bir dəfə kinoya çəkiləsən, o da ola Hacı Zeynalabdin Tağıyevin obrazı!

***

2005-ci ilin noyabrında mətbuatın mədəniyyət xəbərləri bölmələrində bir xəbər yayıldı ki, tezliklə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında yazıçı-dramaturq Əli Əmirlinin "Mesanat" pyesi əsasında eyniadlı tamaşanın premyerası olacaq. Millət atası, böyük xeyriyyəçi Tağıyevə həsr olunmuş, onun ömrünün son illərindən bəhs edən tamaşanın quruluşçu rejissoru Bəhram Osmanovdur. Rollarda Xalq artistləri Əliabbas Qədirov, Şükufə Yusupova, Kamal Xudaverdiyev, Yaşar Nuriyev və b. çıxış edəcəklər.

Bu sətirlərin müəllifi həmin tamaşanı iki dəfə seyr edən xoşbəxt teatrallardandır. Tamaşa ilk dəfə oynanılanda pərdələr hələ açılmamışdan salonda qəribə təlaş duyulurdu. Seyrçilər tanınmış aktyorları tarixi tamaşada görməyin təlaşını, çox sevilən böyük şəxsiyyətin səhnə təcəssümünün necə olacağının, az qala hamımızın bildiyi hadisələrin səhnədə necə cərəyan edəcəyinin həyəcanını yaşayırdılar. Hər kəs özünü tarixi hadisənin şahidi kimi hiss edirdi. O zaman Əliabbas Qədirov hər kəsdən gizlətməyə çalışsa da, xəstəlik artıq onu daxildən didirdi. Çəkisini itirən, rəngi avazıyan aktyor 60 yaşında olsa belə, cavan oğlunun qəfil ölümündən və varidatını bir günün içində itirməkdən sarsılan qoca mesenatın ovqatını rahatlıqla çatdırırdı. Təbii ki, aktyorun istedadı və öz personajına rəğbəti də tamaşanın uğurunu şərtləndirən başlıca amillərdən idi.

İllər sonra "Mesenat"ın quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Bəhram Osmanov həmin tamaşanı belə xatırlayırdı:

– Əliabbas Qədirov qrim etdikdə zahirən də Hacıya çox bənzəyirdi. Üstəlik, o, istedadlı aktyor idi, canı ağrısa da, tez yorulsa da, var gücünü toplayıb rolu üzərində çalışırdı, premyeranı səbirsizliklə gözləyirdi. Sanki hiss edirdi ki, "Mesenat" onun son tamaşası olacaq və o bütün enerjisini, sənət sevgisini və istedadını bu rola vermək istəyirdi. Əliabbas müəllimin xəstəliyi gücləndiyindən o, səhv etmirəmsə, cəmi beş tamaşada çıxış etdi. Artıq növbəti tamaşaya biletlər də satılmışdı, Xalq artisti Nurəddin Mehdixanlı bu qədər həcmli rolu bir həftənin içində hazırladı və tamaşaya daxil oldu. Ümumilikdə, "Mesenat" tamaşası yüz dəfədən çox oynanıldı.

***

Millət atasının kino və səhnə obrazlarına həsr olunmuş yazı üzərində işləyəndə bir xəbər qarşıma çıxdı: "Tağıyev" çoxseriyalı filminin çəkiliş prosesi yekunlaşıb. Filmdə mesenat və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyatı, fəaliyyəti barədə geniş və maraqlı məqamlar əsas götürülüb.

Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə Bakı Media Mərkəzi tərəfindən çəkilən filmin xarici auditoriyada da nümayişi nəzərdə tutulur.

Bu serial barədə mətbuatda yer alan xəbərdə bildirilmişdi ki, ekran əsərində XIX əsrin sonu – XX əsrin əvvəlində Bakıda və bölgələrdə baş verən mühüm tarixi hadisələr əksini tapıb. Layihənin kütləvi səhnələrinin çəkilişlərinə 1600 nəfər cəlb edilib, 70-dən çox məkanda çəkiliş aparılıb. Filmin böyük xeyriyyəçinin vəfatının 100 illiyinə həsr olunduğu deyilirdi. Əgər yadımıza salsaq ki, Tağıyev 1924-cü il sentyabrın 1-də dünyasını dəyişib, deməli, premyeraya az qalıb. Filmin çəkiliş qrupu, yaradıcı heyəti barədə məlumat gizli saxlanılsa da, "Tağıyev"in afişa-prospektindəki şəkildən məlum olur ki, baş rolda Xalq artisti Pərviz Məmmədrzayev çəkilib.

***

... "Mesenat" tamaşasında Əli Əmirli Hacı Zeynalabdin Tağıyevin dilindən belə bir monoloq yazıb:

"Yüz ildən çox yaşadım bu dünyada, özümü xoşbəxt, firavan, işligüclü gördüm. Allahıma tapındım, əl açanları paysız qoymadım.



Rəbbim mərhəmətimi artırdıqca ruhum təzələndi, cavanlaşdı, bədənimin əsarətindən çıxdı. Kimin ruhu bədəninin əsiridirsə, bu dünyadan ikiəlli yapışır, ölüm ayağında ruhu şivən qoparır, dünyanın yalan ləzzətinə uyan, şeytana aldanan bədəndən ayrı qala bilmir. Mənim cavan ruhumsa bu köhnəlmiş nimdaş cismimi asanlıqla tərk edir. Dərs almadım, məktəb görmədim, amma bu az ağlımla bir mətləbi anladım: hər kəs öz əməlinin girovudur. Yaxşı əməl, xeyirxah niyyət heç vaxt unudulmur, amma gecitezi var, nəhayət, şeytanın da bir yorulan vaxtı olur. Mən şeytana mərhəmətimlə qalib gəldim, bu dünyada ən güclü silahım mərhəmətim oldu. Necə ki, müqəddəs Kitabımızda buyurulmuşdur: kim yaxşı əməl sahibi olub özünü Allaha təslim edərsə, o artıq möhkəm bağdan – Qurandan, imandan yapışmış olur. Bütün işlərin axırı Allaha gedib çıxacaqdır. Buyruq Allahındır".

Hacı Zeynalabdin Tağıyev kimi şəxsiyyətin obrazını bundan gözəl ifadə etməyin mümkünsüzlüyünü anlayaraq yazımıza nöqtə qoyuruq.

**Gülcahan Mirməmməd**

## Qərbi Azərbaycan aşıqlarının repertuarı – layihə yekunlaşmaq üzrədir

Azərbaycan Aşıqlar Birliyinin (AAB) QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrantı hesabına həyata keçirdiyi "Çağdaş Qərbi Azərbaycan aşıqlarının musiqi repertuarı" layihəsi üzərində işlər yekunlaşmaq üzrədir.

AAB sədrinin müavini, filologiya üzrə fəlsəfə doktoru Altay Məmmədli bildirib ki, layihənin məqsədi əslən Qərbi Azərbaycandan olub, ötən əsrin sonlarında öz dədə-baba yurdlarından didərgin salındıqdan sonra ölkəmizin müxtəlif guşələrində məskunlaşmış aşıqların musiqi repertuarının zənginləşməsinə yardımçı olmaq, onların ifalarından ibarət audiodisk hazırlayıb geniş ictimaiyyətə təqdim etməkdir.

Audiodiskdə Qərbi Azərbaycanın Göyçə, İrəvan, Zəngəzur, Dərələyəz, Ağbaba, Loru-Pəmbək kimi aşıq mühitləri əhatə olunacaq. İfa olunan musiqi və mətn seçimində Qərbi Azərbaycan aşıq mühitləri ilə bağlı olan saz havalarına və vətənpərvərlik, tarixi torpaqlarımızdakı yurd yerlərimizlə bağlı şeirlərə üstünlük verilib.

Diskdə Əməkdar mədəniyyət işçiləri Fətulla Göyçəli və Bəhmən Göyçəli, eləcə də Faxfur Ağbabalı, Ələddin Musaoğlu, Xanlar Xəlilov, İxtiyar Qocayev, Vaqif İbrahimov kimi ustad aşıqlarla yanaşı Rəfiqə Göyçəli, Nərmin Salahova, Famil Göyçəli, Elməddin Bayramlı, İmran Fikrətoğlu, Ləman Mirzəyeva, Ayaz Əzizoğlu və digər gənc istedadların ifaları yer alır.

Layihənin rəhbəri birliyin katibi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur.

## Xatirə təqvimi

**12 – 18 avqust**

### Azərbaycan

**12 avqust 1921** – Yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Ələviyyə Hənifə qızı Babayeva (1921 – 23.9.2014) anadan olub. "Adamlar və talelər", "Sönmüş ulduzların işığı" və s. romanların müəllifidir.

**12 avqust 1923** – Tərcüməçi Kamil Həsən oğlu Məmmədov (1923–1989) Bakıda anadan olub. SSRİ xalqları ədəbiyyatından tərcümə etdiyi pyeslər teatrlarda tamaşaya qoyulub.

**12 avqust 1926** – Xalq şairi, Dövlət mükafatı laureatı Qabil (Qabil Allahverdi oğlu İmamverdiyev; 1926 – 3.4. 2007) Bakıda anadan olub. Kitabları: "Mənim mavi Xəzərim", "Ömrüm boyu", "Nəsimi", "Ömrün həbləri", "İlahi qisməti" və s.

**12 avqust 1943** – Xalq artisti Vaqif Abdulla oğlu Şərifov (1943 – 5.10.2021) anadan olub. Sumqayıt, Ağdam teatrlarında baş rejissor, Gəncə teatrında baş rejissor və bədii rəhbər işləyib, filmlərə çəkilib.

**13 avqust 1944** – Əməkdar artist Mansur Əbdül oğlu Mansurov (1944 – 22.4.2020) Bakıda doğulub. 1970-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Kukla Teatrının aktyoru olub.

**13 avqust 1947** – Xalq artisti, rejissor Azər Paşa Zəfər oğlu Nemətov (1947 – 9.4.2023) Bakıda doğulub. Gənc Tamaşaçılar Teatrında işləyib. 1990-cı ildən Akademik Milli Dram Teatrında fəaliyyətə başlayıb, teatrın bədii rəhbəri-baş rejissoru (2015), direktoru (2016-cı ildən) olub. Azərbaycan Teatr Xadimləri İttifaqına rəhbərlik (2004-cü ildən) edib.

**13 avqust 2021** – Xalq artisti, aktyor Vaqif Məzahir oğlu Əliyev (31.7.1940 – 2021) vəfat edib. Sumqayıt Dövlət Dram Teatrının aktyoru olub. Bakı Bələdiyyə Teatrında çalışıb.

**14 avqust 1923** – Ədəbiyyatşünas, akademik, Dövlət mükafatı laureatı Kamal Abdulla Şaiq oğlu Talıbzadə (1923 – 20.1.2006) anadan olub. "Ədəbi irs və varislər", "Azərbaycan ədəbi tənqidinin tarixi" və s. monoqrafiya və kitabların müəllifidir.

**14 avqust 1933** – Şair, Əməkdar incəsənət xadimi Ramiz Heydər (Məmmədov; 1933–2010) Bakıda anadan olub. Sözlərinə populyar mahnılar ("Ayrılma məndən", "Toy olsun, bayram olsun") bəstələnib.

**14 avqust 1938** – Əməkdar memar, memarlıq doktoru, professor Nəriman Əşrəf oğlu Əliyev (1938 – 13.7.2020) anadan olub.

**14 avqust 1940** – Yazıçı-tərcüməçi, kino təşkilatçısı Asif Akif oğlu Əliyev (1940–2001) anadan olub. "Azərbaycanfilm"də dublyaj şöbəsinin baş redaktoru işləyib.

**14 avqust 1948** – Əməkdar mədəniyyət işçisi Yavər Qəhrəman oğlu Cəbrayılov (1948 – 6.5.2023) anadan olub. Salyan Dövlət Kukla Teatrının direktoru işləyib.

**14 avqust 1961** – Əməkdar artist Əzizə Əbdülbağı qızı Məmmədova (1892–1961) vəfat edib. Akademik Milli Dram, Türk İşçi teatrlarında çalışıb, "Görüş", "Səhər" və s. filmlərdə çəkilib.

**14 avqust 2017** – Tanınmış rəssam Əsgər Əsgərov (1948–2017) vəfat edib. Rəngkarlıq, batika, qrafika və s. nümunələrində İçərişəhər mövzu və motivləri xüsusi yer tutur.

**15 avqust 1902** – Əməkdar artist Qəmər Topuriya (Tamara Vissarionovna Topuriya; 1902–1947) Tiflisdə doğulub. Tiflisdə Azərbaycan teatrında çalışıb, Azərbaycan Dövlət Akademik Dram Teatrının aktrisası olub.

**15 avqust 1922** – Xalq artisti Konstantin Adamov (1922–1990) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**15 avqust 1936** – Əməkdar memar Tofiq Əli oğlu Abdullayev (1936 – 14.12.2021) Göygöl rayonunda doğulub. Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru olub.

**15 avqust 1952** – Əməkdar müəllim Yusif Boran oğlu Vəliyev (1952 – 25.5.2021) Ağdam şəhərində anadan olub. Bakı şəhəri G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbinin direktoru işləyib.

**16 avqust 1924** – Əməkdar artist, məşhur tarzən Əhsən Əliabbas oğlu Dadaşov (1924 –29.5.1976) Bakıda olub. 1960-cı ildə Azərbaycan Televiziyası və Radiosunun "Xatirə" xalq çalğı alətləri ansamblını yaradıb. Hazırda kollektiv onun adını daşıyır.

**16 avqust 1925** – Xalq şairi, dramaturq, ədəbiyyatşünas, Dövlət mükafatları laureatı Bəxtiyar Mahmud oğlu Vahabzadə (1925 – 13.2.2009) Şəkidə anadan olub. 20-dək poema, 10 dram əsəri ("Vicdan", "Yollara iz düşür", "Özümüzü kəsən qılınc", "Dar ağacı" və s.) yazıb. Azərbaycan Ali Sovetinin, Milli Məclisin deputatı olub.

**16 avqust 1925** – Yazıçı-dramaturq, ədəbiyyatşünas, dövlət xadimi Şıxəli Qurban oğlu Qurbanov (1925 – 24.5.1967) Bakıda doğulub. "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu" və s. pyeslərin müəllifidir. Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan KP MK-nın katibi olub.

**16 avqust 1936** – Tanınmış filosof, AMEA-nın müxbir üzvü Zakir Cabbar oğlu Məmmədov (Baharlı; 1936 – 2.3.2003) Ağdamda doğulub. "Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir", "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" və s. kitabların müəllifidir.

**17 avqust 1942** – Dünya şöhrətli Azərbaycan müğənnisi, bəstəkar, SSRİ Xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayev (1942 – 25.10.2008) Bakıda doğulub. Beynəlxalq müsabiqələrin qalibi, Akademik Opera və Balet Teatrının solisti, Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin bədii rəhbəri olub. "Nizami" filmində baş rola çəkilib.

**17 avqust 1943** – Xalq artisti, müğənni İlhamə Məzahir qızı Quliyeva (1943 – 25.2.2016) anadan olub. Azərbaycan Televiziyası və Radiosu estrada orkestrinin, Dövlət Filarmoniyasının solisti olub.

**17 avqust 1951** – Tanınmış müğənni Cəfər Ağaəli oğlu Behbudov (1951 – 26.9.2019) Bakıda doğulub. 1991-ci ildən Ukraynada yaşayıb.

**17 avqust 1958** – Musiqişünas, sənətşünaslıq namizədi Aytəkin Tofiq qızı Həsənova (1958–2012) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru, Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri olub.

**17 avqust 1998** – Xalq yazıçısı Yusif Səmədoğlu (Yusif Səməd oğlu Vəkilov; 25.12.1935 – 1998) vəfat edib. "Ulduz" və "Azərbaycan" jurnallarının baş redaktoru, Milli Məclisin deputatı olub.

**18 avqust 1991** – Görkəmli dilçi və ədəbiyyatşünas, şair, tərcüməçi, pedaqoq Əkrəm Cəfər (Əkrəm Səftər oğlu Cəfərov; 5.5.1905 – 1991) vəfat edib.

**18 avqust 1946** – Dilçi alim, türkoloq, professor Kamil Vəli Nərimanoğlu (Vəliyev; 1946 – 16.12.2023) Cəbrayıl rayonunda anadan olub. Türkiyədə, Şimali Kiprdə universitetlərdə çalışıb. Türk Dil Qurumunun fəxri üzvü olub.

### Dünya

**12 avqust 1866** – İspan dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1922) Xasinto Benavente-i-Martines (Jacinto Benavente Martinez; 1866–1954) anadan olub. "Qubernatorun xanımı", "Yaxşı məhəbbətin dərsləri" və s. pyeslərin müəllifidir.

**13 avqust 1899** – Amerika rejissoru, "Oskar" mükafatları laureatı Alfred Hiçkok (Alfred Joseph Hitchcock; 1899–1980) anadan olub. Filmləri: "Quşlar", "Naməlum insanlar qatarda", "39 pillə" və s.

**14 avqust 1867** – İngilis yazıçısı, dramaturq və şair, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1932) Con Qolsuorsi (John Galsworthy; 1867–1933) anadan olub. "Forsaytlar haqqında saqa" trilogiyası, "Gümüş qutu" pyesi və s. əsərlərin müəllifidir.

**15 avqust 1771** – Şotland yazıçısı, şairi Valter Skott (Walter Scott; 1771–1832) anadan olub. Tarixi roman janrının banisi sayılır. Əsərləri: "Edinburq həbsxanası", "Ayvenqo", "Kventin Dorvard" və s.

**15 avqust 1925** – Türkiyənin tanınmış teatr və kino aktyoru Münir Özkul (1925 – 5.1.2018) İstanbulda doğulub. 200-dən çox filmdə yaddaqalan obrazlar yaradıb.

**16 avqust 1645** – Fransız yazıçısı Jan de Labryuer (Jean de La Bruyere; 1645-1696) anadan olub.

**17 avqust 1932** – Hind əsilli yazıçı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2001)  Vidiadxar Suracprosad Naypol (1932–2018) Trinidad və Tobaqoda anadan olub. Ömrünün böyük hissəsini İngiltərədə yaşayıb.

**17 avqust 1935** – Rus aktyoru, rejissor, SSRİ Xalq artisti Oleq Tabakov (1935 – 12.3.2018) anadan olub. A.Çexov adına Moskva Bədaye Teatrına rəhbərlik edib, 100-dən çox filmdə çəkilib.

**Hazırladı: V.Orxan**

№59-60 (2125)
16 avqust 2024
www.medeniyyet.az

# “Paris–2024”də 329 dəst medal bölüşdürülüb

## Azərbaycan dünya üzrə ilk 30 ölkə sırasına daxil olub...



Fransa paytaxtında 26 iyul – 11 avqust tarixlərində keçirilən XXXIII Yay Olimpiya Oyunlarında ümumilikdə 329 dəst medal (qızıl, gümüş, bürünc) bölüşdürülüb. Olimpiadaya qatılan 205 yığmadan (204 ölkə və 1 qaçqın idmançılar yığması) 91-i medal sevinci yaşayıb.

Gözlənildiyi kimi, “Paris–2024”ün medal sıralamasında birinci Amerika Birləşmiş Ştatları olub: 126 medal (40 qızıl, 44 gümüş, 42 bürünc).

2-ci yeri Çin Xalq Respublikası tutub: 91 medal (40 qızıl, 27 gümüş, 24 bürünc). Onu da qeyd edək ki, Çinin xüsusi inzibati regionu olan Honkonq olimpiadada ayrıca iştirak edib və 4 medal (2-si qızıl) qazanıb.

Qızıl medalların əsas götürüldüyü sıralamada Yaponiya 3-cü (20 qızıl, 12 gümüş, 13 bürünc), Avstraliya 4-cü (18 qızıl, 19 gümüş, 16 bürünc), ev sahibi Fransa 5-ci (16 qızıl, 26 gümüş, 22 bürünc) olub.

İlk onluqda həmçinin Niderland (15 qızıl), Böyük Britaniya (14 qızıl), Cənubi Koreya (13 qızıl), İtaliya və Almaniya (hərəyə 12 qızıl) var. Yeri gəlmişkən, Böyük Britaniya ümumi medal sayında (65) üçüncüdür, amma qızıl medal göstəricisinə görə 7-ci sıra ilə kifayətlənib.



Azərbaycan idmançıları “Paris–2024”də 7 medal (2 qızıl, 2 gümüş, 3 bürünc) qazanıblar. Ölkəmiz eyni göstərici ilə Xorvatiya ilə 30-31-ci yerləri bölüşdürüb.

Xatırladaq ki, Azərbaycan komandasının heyətində cüdoçular Hidayət Heydərov (73 kiloqram çəki dərəcəsi) və Zelim Kotsoyev (100 kiloqram) Olimpiya çempionu olublar. Taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) və boksçu Alfonso Dominqes (92 kiloqram) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kiloqram), sərbəst güləşçilər Maqomedxan Maqomedov (97 kiloqram) və Giorgi Meşvildişvili (125 kiloqram) isə bürünc medala sahib çıxıblar.

Azərbaycan medal əyarına görə Tokio Olimpiadasındakı nəticəsini yaxşılaşdırıb. İdmançılarımız 2021-ci ildə Yaponiya paytaxtında keçirilmiş Oyunlarda 3 gümüş və 4 bürünc medal qazanmışdılar.

Budəfəki 30-cu yer Azərbaycan üçün indiyədək qatıldığımız olimpiadalar tarixində ən yüksək göstəricidir. Ölkəmiz 1996-cı ildə Atlanta Olimpiadasında 61-ci, “Sidney–2000”də 34-cü, “Afina-2004”də 50-ci, “Pekin–2008”də 39-cu, “London–2012”də 32-ci, “Rio–2016”da 39-cu, Tokio Olimpiadasında (2021) isə 67-ci olmuşdu.

Azərbaycanın Parisdəki digər bir nailiyyəti bədii gimnastika üzrə komandamızın qrup hərəkətlərində 5-ci pilləyə yüksəlməsidir.

“Paris–2024”də Azərbaycan postsovet ölkələri arasında Özbəkistan (8 qızıl), Ukrayna və Gürcüstandan (hərəyə 3 qızıl) sonra 4-cüdür. Özbəkistan tarixində ən yüksək nəticə göstərərək dünya sıralamasında 13-cü olub. Postsovet ölkələri sırasında bizdən sonra Qazaxıstan (1 qızıl), Qırğızıstan, Ermənistan, Moldova, Tacikistan və Litva (qızıl medalları yoxdur) var. Latviya, Estoniya və Türkmənistan medal qazana bilməyib. Rusiya və Belarus isə, məlum olduğu kimi, Paris Olimpiadasında iştirak etməyib.

Qeyd edək ki, Parisdən sonra Yay Olimpiya Oyunları estafetini Los-Anceles (ABŞ) qəbul edib. 1932 və 1984-cü illərdə olimpiadalara ev sahibliyi etmiş şəhər 2028-ci ildə üçüncü dəfə bu şərəfi yaşayacaq.

# Türkiyənin Mədəniyyət Yolu Nevşehirdən də keçdi

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə 2021-ci ildə əsası qoyulan və bu il 16 şəhəri əhatə edən Mədəniyyət Yolu Festivalının yeddinci dayanacağı Nevşehir olub.



Avqustun 3-dən 11-dək davam edən festivalın açılış mərasimi Nevşehir vilayətinin Ürgüp rayonunda, Kapadokya Universitetinin kampusunda keçirilib. Mərasimə Nevşehir valisi Əli Fidan, mədəniyyət və turizm nazirinin müavini Gökhan Yazni və digər rəsmilər qatılıblar.

Nazir müavini Gökhan Yazni bu il dördüncüsü keçirilən Mədəniyyət Yolu Festivalının Türkiyənin tanıdılması baxımından dəyərli olduğunu vurğulayaraq deyib: “Nevşehirdə 40 məkanda 500-ə yaxın tədbirdə qastronomiyadan konsertlərə qədər mədəniyyət və incəsənətin bir çox sahəsində qonaqlarımızın əylənəcəyi bir proqram hazırladıq. Turizmdə böyük hədəflərimiz var. 2024-cü ilin sonuna qədər 60 milyon turist hədəfimizə çatmaq üçün çalışırıq. Bu festival da bizim üçün çox önəmlidir”.

Nevşehirin Mədəniyyət Yolu Festivalını ikinci dəfə qəbul etdiyini diqqətə çatdıran vali Əli Fidan “Şəhərimizin tanıdılması baxımından festivalın böyük dəyəri var. Festival günlərində bir çox sənətçini şəhərimizdə qonaq edərkən Kapadokyanın bənzərsiz gözəlliklərini də onlara göstərəcəyik”, – deyib.

Nevşehirdə doqquz gün sürən festival çərçivəsində konsertlər, sərgilər, teatr tamaşaları, sənətçilərlə görüşlər, qastronomiya təcrübələri və digər tədbirlər təşkil olunub.

“Kapadokya Moda Həftəsi”nin (“AFWEU Fashion Week Cappadocia”, 1–4 avqust) əsas dəfiləsi də festivalla eyni vaxta təsadüf edib. Yeri gəlmişkən, 10-dan çox ölkədən modelyerlərin qatıldığı təqdimatda Azərbaycandan Gülnarə Xəlilovanın dizayn kolleksiyası da maraqla qarşılanıb.

8–11 tarixlərində isə 17 ölkədən fiqurlu isti hava şarları bölgənin səmasında nümunəvi uçuşlar keçirib.

Qeyd edək ki, aprel ayında Adanada başlayan Mədəniyyət Yolu Festivalı Şanlıurfa, Bursa, Samsun, Tranzon və Vanda davam edib. Nevşehirdən sonra festivalın növbəti dayanacağı 17–25 avqustda Ərzurum olacaq. Çanaqqala, Qaziantep, Ankara, Konya, İstanbul, Diyarbəkir və İzmirdən də keçəcək Mədəniyyət Yolu noyabrda Antalyada başa çatacaq.

# Astana estrada müğənnilərini səsləyir




Sentyabr ayında Qazaxıstanın paytaxtı Astanada əfsanəvi müğənni Roza Baqlanova adına Beynəlxalq Vokal Müsabiqəsi keçiriləcək.

Qazaxıstan Respublikası Mədəniyyət və İnformasiya Nazirliyinin dəstəyi ilə keçirilən müsabiqə istedadlı gənc vokalçıların parlaması və dəstəklənməsi üçün mühüm meydan olacaq.

Nazirliyin yaydığı məlumata görə, estrada janrında oxuyan respublika, beynəlxalq və televiziya müsabiqələrinin 18-35 yaşlı iştirakçıları, həmçinin mədəniyyət və incəsənət profilli ali məktəblərin tələbələri müsabiqəyə qatıla bilərlər. İştirak ərizələri 1 sentyabr 2024-cü il tarixinədək qəbul edilir.

Müraciət üçün əsas şərt Roza Baqlanovanın repertuarından bir mahnının ifa edilməsidir ki, bu da hər bir iştirakçının böyük qazax müğənnisinin irsi ilə tanışlığına və öz məharətini beynəlxalq səhnədə nümayiş etdirməsinə imkan verir.

**Gülcahan**

# “Altın minbər”ə 51 film iddialıdır

Sentyabrın 6-dan 11-dək Tatarıstanın (RF) Kazan şəhərində XX “Altın minbər” Beynəlxalq Film Festivalı keçiriləcək.




Bu il festivalın təşkilat komitəsinə 47 ölkədən müraciət olub, müsabiqə proqramına 27 ölkədən 51 film salınıb. “Tammetrajlı bədii film”, “Qısametrajlı bədii film”, “Sənədli filmlər” və “Animasiya filmləri” proqramlarının hər birində 10, Tatarıstan istehsalı olan filmlərin salındığı “Milli müsabiqə”də isə 11 ekran əsəri iştirak edəcək.

Tatarıstan Mədəniyyət Nazirliyinin yaydığı məlumata görə, Türkiyə kinematoqrafının təmsilçiləri festivalın ən çox gözlənilən qonaqları olacaq. Rusiyada da populyar olan “Möhtəşəm yüz il” və “Diriliş Ərtoğrul” seriallarında çəkilmiş aktyorların Kazana gəlişi vəd edilib. “Diriliş Ərtoğrul”un quruluşçu rejissoru Mətin Günayın isə festivalın jüri sədri olacağı bildirilir.

Festival üçün seçilmiş bütün filmlər sülhpərvərlik, dini inanclara hörmət və humanizm ideyaları daşıyan dəyərləri və mədəni ənənələri əks etdirir. “Altın minbər”in açılışında İran rejissoru Babək Hacıpaşanın “Ağacın ağuşunda” filmi nümayiş olunacaq.

Festival çərçivəsində regional kino bazarı, kino layihələrinin pitçinqi, “Kinematoqrafın dünya trendləri” adlı beynəlxalq elmi-praktik konfrans da nəzərdə tutulub.

Əvvəlki festivallardan fərqli olaraq, bu il festival filmlərinə bilet satılacaq. Təşkilatçılar bu fikirdədir ki, simvolik qiymətə satılan bilet tamaşaçıların hansı filmlərə tələbatı və marağı olduğunu müəyyən etməyə imkan verəcək. Festivalın müsabiqədənkənar proqramlarına daxil edilmiş filmlər sonradan Tatarıstanın 43 rayonunda da göstəriləcək.

Xatırladaq ki, Rusiya Federasiyası Mədəniyyət Nazirliyinin dəstəklədiyi kino layihələri siyahısına daxil olan “Altın minbər” festivalı “Mədəniyyətlərin dialoqundan dialoq mədəniyyətinə” devizi altında 2005-ci ildən keçirilir.

**G.Mirməmməd**

# Üzə çıxan tarix: Mərakeşin ilk milli arxeoloji xəritəsi

Mərakeş Krallığının Mədəniyyət Nazirliyi ölkənin mədəni irsinin inventarlaşdırılması, qorunması və idarə olunmasını təkmilləşdirmək məqsədilə ilk milli arxeoloji xəritə hazırlayıb. Bu barədə Mərakeşin Bakıdakı səfirliyinin məlumatında bildirilir.



Xəritə Milli Arxeologiya və İrs Elmləri İnstitutu və Mədəni İrs Direktorluğu tərəfindən verilən məlumatlar əsasında ölkədə tədqiq olunan arxeoloji ərazilər üzrə tərtib edilib. Hazırda xəritə Dakhla, Essaouira, Casablanca, Rabat-Salé-Kénitra, Asilah və Oriental kimi bölgələri əhatə edir. Gələcək yenilənmələr Tan Tan, Zaqora, Tamanart, Rehamna və Béni Mellal-Khénifra kimi regionlardakı arxeoloji əraziləri də əhatə edəcək.

Qeyd olunur ki, layihə Mərakeş arxeologiyasında əhəmiyyətli irəliləyişdir və ölkə daxilində yeni ekspedisiyalar və inventarlaşdırma aparıldıqca müntəzəm olaraq yenilənəcək. Xəritə mədəni və arxeoloji irsi birləşdirən turizm planlarının yaradılmasını asanlaşdıracaq regional atlasların əsasını təşkil edir.

Ölkənin Mədəniyyət Nazirliyi “proqnozlar” kimi tanınan rəqəmsal regional xəritələr də hazırlayır. Bu rəqəmsal xəritələr Afrikada qabaqcıl təşəbbüs olan arxeoloji ərazilərin tənəzzülünün qarşısını almaq üçün monitorinq sistemi yaratmağa və arxeoloji tədqiqatlar üçün prioritet sahələri müəyyənləşdirməyə kömək edəcək.

Arxeoloji xəritə həmçinin torpaqdan istifadənin planlaşdırılmasında və mədəni turizm layihələrinin inkişafında mühüm rol oynayacaq.

Qeyd edək ki, Mərakeş Azərbaycanla da turizm əlaqələrini genişləndirmək niyyətindədir. Avqustun 28-də iki ölkə arasında vizadan azad edilmə haqqında saziş qüvvəyə minəcək ki, bu da qarşılıqlı səyahəti təşviq edəcək.

Xronoqraf

# Tarixdə bu gün

## Olaylar, faktlar (12 – 18 avqust)

### 219 il əvvəl...

**12 avqust 1805-ci ildə** Rusiya-İran müharibəsi (1804–1813) gedişində rus qoşunları Bakı xanlığının strateji məntəqələrini ələ keçirərək şəhəri mühasirəyə alıblar. Lakin general Pavel Sisianovun qoşunları müvəffəqiyyət qazanmayaraq geri çəkilib. 1806-cı ilin yanvarında Şirvan xanlığını da işğal edən rus qoşunları yenidən Bakıya yaxınlaşdı. Şəhəri təslim etmək haqqında Bakı xanı Hüseynqulu xanla danışıqlar aparılan zamanı general Sisianov öldürüldü. Ruslar 1806-cı ilin oktyabrında Bakını aldılar.

### 118 il əvvəl...



**16 avqust 1906-cı ildə** Nijni-Novqorod şəhərində Ümumrusiya müsəlmanlarının III qurultayı başlayıb. Avqustun 20-dək davam edən qurultayda Əlimərdan bəy Topçubaşov Ümumrusiya Müsəlmanları İttifaqının rəhbəri seçilib.

### 105 il əvvəl...

**18 avqust 1919-cu ildə** Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti ölkə sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edib. Hərbi Nazirliyin tərkibində ilk sərhəd qoşunları dəstəsi yaradılıb. Prezident Heydər Əliyevin



2000-ci il 16 avqust tarixli fərmanı ilə 18 avqust “Sərhəd qoşunları günü” elan edilib.

### 77 il əvvəl...

**14 avqust 1947-ci ildə** Britaniyanın müstəmləkəsi olan “Britaniya Hindistanı” ərazisində iki dövlət – Hindistan və Pakistan yaranıb. Pakistanın tərkibinə müstəmləkənin şimal-şərq və şimal-qərb bölgələri daxil olub. “Hindistan İttifaqı” adı altında üç il mövcud olan dövlət isə 1950-ci ildə (26 yanvar) Hindistan Respublikası elan edildi. Odur ki, Pakistandan fərqli olaraq, Hindistan dövlət bayramını 26 yanvarda qeyd edir. 1971-ci ildə Şərqi Pakistanda Banqladeş dövləti yarandı və o da müstəqilliyini elan edib.

### 63 il əvvəl...

**13 avqust 1961-ci ildə** “Berlin divarı”nın tikintisi başlanıb. II Dünya müharibəsindən sonra Almaniyanın ikiyə bölünməsi ilə Berlin şəhəri sektorlara ayrılmışdı. Şərqi Berlin (sovet sektoru) ADR-in paytaxtı olmuş, Qərbi Berlin AFR-in ərazisində qalmışdı. 1945–1961-ci illər ərzində Şərqi Almaniyadan təxminən 2 milyon nəfər Qərbi Almaniyaya qaçmışdı. Uzunluğu 45 kilometr olan “Berlin divarı” bu prosesin qarşısını aldı. Berlin divarı 1989-cu ildə, Almaniyanın birləşməsindən bir il öncə söküldü.

### 32 il əvvəl...



**15 avqust 1992-ci ildə** Azərbaycanda milli valyuta – manat dövriyyəyə buraxılıb. Milli valyutanın dövriyyəyə buraxılması barədə fərman 1992-ci il iyulun 15-də Prezident Əbülfəz Elçibəy tərəfindən imzalanmışdı. 1992-ci ildə 1, 5, 10, 250 manatlıq, 1993-cü ildə 50, 100, 500, 1000 manatlıq pul vahidləri tədavülə buraxılıb. 1994-cü ilə qədər manat dövriyyədə köhnə sovet rublu ilə paralel işləyib.

### 25 il əvvəl...

**17 avqust 1999-cu ildə** Türkiyənin Mərmərə bölgəsində zəlzələ baş verib. Gecə saat 3 radələrində meydana gələn və episentrdə (Gölcük) 7,6 bal gücündə hiss edilən fəlakət İstanbul, Bursa, Sakarya, Bolu, İzmit, Yalova və s. şəhərlərdə böyük dağıntı və insan tələfatına səbəb oldu. Rəsmi statistika üzrə zəlzələ qurbanlarının sayı 17500 nəfər göstərilmişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Bəstəkarlar İttifaqının sədri Xalq artisti, professor Firəngiz Əlizadə və ittifaqın idarə heyəti tanınmış bəstəkar **Rəhilə Həsənovanın** vəfatı ilə əlaqədar mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 1855
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641